**AZƏRBAYCAN RESPUBLİKASI**
**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**



# "NAXÇIVANDIR, NƏQŞİ-CAHANDIR, AZƏRBAYCANDIR!"

**Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə**

## (metodiki məktub)

**BAKI-2014**

# ÖN SÖZ

**Azərbaycanın ayrılmaz bir hissəsi olan Naxçıvan diyarı çox mürəkkəb, keşməkeşli inkişaf yolu keçməklə, həm də qəhrəmanlıqlarla zəngin bir tarix yaşamışdır. Tarixin bütün mərhələlərində öz övladlarının səyləri nəticəsində bölgə ərazisi düşmən basqınlarından qorunmuş və inkişaf etdirilmişdir.**

**80-ci illərin sonlarında Muxtar Respublikanın qarşılaşdığı vəziyyət, üzləşdiyi çətinliklər yenə də qorxmaz və igid övladların bacarığı ilə aradan qaldırıldı. Xüsusilə, 90-cı ilin yayında dünya miqyaslı siyasi xadim Heydər Əliyevin Naxçıvana gəlməsi, yerli əhali ilə birlikdə olması bu diyarı gələcək bəlalardan qurtardı, əhalinin inam və mübarizəsinə güc və qüvvət verdi. Həqiqətən də 90-cı illərin əvvəllərində, eləcə də Naxçıvana basqınları bölgədə çox mürəkkəb və təhlükəli vəziyyət yaratmışdı. Möhtərəm Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi, bu görkəmli siyasi xadimin yeritdiyi uzaqgörən və ağıllı siyasət bölgəni və əhalini gözlənilən bəlalardan xilas etdi. Xarici təhlükənin aradan qaldırılması, daxili sabitliyin və inkişafın əsası bu illərdə qoyuldu. Həmin illərdəki tarixi hadisələrin düzgün məcraya yönəldilməsi məşhur dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Siyasət aləminin zirvəsi olan Heydər Əliyevin siyasətində təsadüfi heç nə yoxdur. Bu siyasətdə qanunauyğunluq və uzaqgörənlik, ciddi təhlil və bundan çıxarılan nəticə, məntiq və qətiyyət, obyektivlik və düzlük, inandırmaq və bir çox hallarda bəzi siyasətçilərin qəbul edə bilmədikləri sadəlik. Heydər Əliyev siyasətinin gücü bunlardadır. Xalqımızın milli lideri olan Heydər Əliyevin siyasi fəaliyyəti haqqında yüzlərlə əsərlər yazılmış və bundan sonra da daha çox yazılacaqdır.**

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə bağlı keçiriləcək tədbirlərin planı

**P L A N**

1. Giriş.
2. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
3. Nəqşi cahandı-Anamız Azərbaycandı adlı məruzə.
4. Görkəmli insanların Naxçıvan Muxtar Respublikası haqqında söylədikləri sitatlar.
5. "HƏR DAŞIN ALTINDA BİR TARİX YATIR" adlı slayd.
6. Naxçıvan şəhərinin foto sərgisi.
7. Kitab sərgisi. Sərgidə Naxçıvan Muxrar Respublikasının tarixi ilə bağlı kitablar, dövrü mətbuatda nəşr olunan qəzet və jurnal materialları, Naxçıvanın görkəmli şair və yazıçıların kitabları və s. nümayiş olunmalıdır.
8. " Tarixi aqbidələri ilə öyünən diyar" adlı foto stend.
9. Musiqi məktəbinin ifasında xor.
10. "Əlincə qalası", "Naxçıvan" adlı nağıllarından hazırlanmış səhərciklər.
11. "Şərq memarlığının inciləri" adlı əl işlərinin sərgisi.

# Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**2014-cü il fevral ayının 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi tamam olur.**

**Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir.**

**Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır.**

**Naxçıvan əhalisinin milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətləri vardır. Bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır. Naxçıvan hazırda mötəbər beynəlxalq tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir.**

**Naxçıvan Muxtar Respublikasının yaradılmasının Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsi olduğunu nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:**

**1. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi dövlət səviyyəsində qeyd olunsun.**

**2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Naxçıvan Muxtar**

**Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.**

**3. Naxçıvan Muxtar Respublikasında Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirmək Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə tövsiyə edilsin.**

**4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.**

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 14 yanvar 2014-cü il.**

# GİRİŞ

# B Ö L M Ə I

## Naxçıvan Muxtar Respublikasının Tarixinə qısa baxış

**Naxçıvanda son illərdə quruculuq işləri gedir, məktəblər tikilir, yaşayış evləri tikilir. Bunlar bir daha onu göstərir ki, naxçıvanlılar ən çətin şəraitdə ruhdan düşmürlər, öz işlərini aparırlar, qururlar, yaradırlar.**

**Heydər Əliyev**
**Ümummilli lider**

1990-cı ildən Naxçıvan Muxtar Respublikası adlanan Azərbaycan Respublikasının tərkibində muxtar dövlət olan bu qurum 1920-23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924-90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adlanmışdır. Şimalda və şərqdə Ermənistan Respublikası (sərhəd xəttinin uzunluğu 246 km), qərbdə və cənubda Türkiyə (11 km) və İran İslam Respublikası (204 km) ilə həmsərhəddir. Naxçıvan Muxtar Respublikasının Ermənistan ilə təbii sərhədini, əsasən, Zəngəzur və Dərələyəz silsilələrinin suayırıcıları, Türkiyə və İranla sərhədini isə Araz çayı təşkil edir. Ərazisi şimali-qərbdən cənubi-şərqə doğru 158 km məsafədə uzanır. Muxtar respublikanın şimalda ən ucqar nöqtəsi Saraybulaq silsiləsinin Şərur rayonu ərazisindəki Kömürlü dağı (2064 m), ən cənub nöqtəsi isə Arazın sol sahilində 600 m yüksəklikdə yerləşən Zerəni dəmiryol stansiyasıdır. Şimaldan cənuba doğru ən böyük məsafəsi 75 km-ə bərabərdir. Qədim Azərbaycan torpağı Zəngəzurun 1920-ci ildə "sovet rəhbərliyi" tərəfindən qanunsuz olaraq Ermənistana verilməsi nəticəsində 44-45 km enində zolaq Araza doğru uzanaraq, Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikasının qalan ərazisindən ayırmışdır. 1924-cü ildə Naxçıvan MSSR-də 3 qəza və 12 dairə təşkil olunmuş, 1925-ci ildə qəzalar ləğv edilmiş, dairələrin sayı 8-ə endirilmişdi: Baş Noraşen, Qıvraq, Tumbul, Əbrəqunus, Nərimanov, Culfa, Parağa və Ordubad. 1930-cu ilin birinci yarısında Şahbuz rayonu əlavə edilməklə Şərur, Naxçıvan, Culfa, Ordubad, Əbrəqunus rayonları yaradıldı. 1948-ci ildə Əbrəqunus rayonu Culfa rayonu ilə birləşdirildikdən sonra Naxçıvan MSSR inzibati cəhətdən beş rayona - Naxçıvan (1978-ci ildən Babək), Şərur, Şahbuz, Culfa və Ordubad rayonlarına bölünmüşdür. 1990-cı il avqustun 28-də Azərbaycan SSR Ali Sovetinin fərmanına əsasən

Türkiyə ilə həmsərhəd bölgənin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək məqsədilə, həmçinin ərazinin geostrateji mövqeyi nəzərə alınaraq, Sədərək kəndi və ona məxsus ərazilər əsasında Sədərək rayonu yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2004-cü il 19 mart tarixli qanuna əsasən sərhəd bölgələrində və gediş-gəliş çətin olan dağlıq və dağətəyi ərazilərdə əhalinin ehtiyaclarını daha dolğun ödəmək və məskunlaşmasını təmin etmək, dövlət idarəetməsini təkmilləşdirmək, həmçinin sərhədboyu ərazinin müdafiəsinin daha da möhkəmləndirilməsini təmin etmək məqsədilə hər iki rayonun mərkəzlərindən 35-40 km aralıda dağlıq və dağətəyi əraziləri əhatə edən sərhədboyu zonalarda yerləşən 9 inzibati-ərazi dairəsinin 11 kəndinin bazasında Kəngərli rayonu yaradılmışdır. 1929-cu il fevralın 18-də Zaqafqaziya MİK totalitar inzibati-amirlik şəraitində Naxçıvan MSSR-in 9 kəndinin - Şərur dairəsinin Qurdqulaq, Xaçik, Horadiz, Şahbuz nahiyəsinin Oğbin, Sultanbəy, Ağxaç, Almalı, İtqıran kəndlərinin, Ordubad dairəsinin Qorçevan kəndinin, habelə Kilit kəndinin torpaqlarının bir hissəsinin, əkin sahələri və otlaqları ilə birlikdə Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar qəbul etmişdir. Zaqafqaziya MİK-in Naxçıvanın sərhədləri məsələsinə baxması, Moskva müqaviləsi (1921) və Qars müqaviləsi (1921) sənədlərini imzalayan tərəflərin iştirakı olmadan Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi beynəlxalq hüquq normalarının kobudcasına pozulması, Azərbaycan xalqına qarşı əsl xəyanətkarlıq və cinayət idi.

Hazırda 7 inzibati rayona - Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli rayonlarına bölünmüşdür. 4 şəhəri (Naxçıvan şəhəri, Ordubad şəhəri, Culfa şəhəri, Şərur şəhəri), 9 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi vardır.

- **Ümumi ərazi, [kv. km] 35.48**
- **Əhalinin ümumi sayı 69050**
- **Qəsəbələrin sayı 1**
- **İri və orta müəssisələrin sayı 538**
- **Məktəbəqədər uşaq müəssisələrinin sayı 9**
- **Ümumtəhsil məktəblərinin sayı 19**
- **Texniki, orta ixtisas və peşə məktəblərinin sayı 3**
- **Ali təhsil müəssisələrinin sayı 3**
- **Xəstəxanalar və tibb müəssisələrinin sayı 23**
- **Mədəniyyət ocaqlarının sayı 38**

Naxçıvan şəhəri Naxçıvan Muxtar Respublikasının paytaxtıdır. Ərazisi 35,48 kvadrat kilometr, əhalisi 71,5 min nəfərdir (01.07.2008). Naxçıvandan Bakıyadək olan məsafə 536 kilometrdir. Azərbaycanın ən qədim şəhərlərindən olan Naxçıvan iri sənaye, elm və mədəniyyət mərkəzi, mühüm dəmir yolu və avtomobil nəqliyyatı qovşağında yerləşir. Burada Beynəlxalq Hava Limanı vardır.

Naxçıvan şəhəri Naxçıvan düzündə, Naxçıvançayın sahilindədir. Əliabad qəsəbəsi Naxçıvan şəhərinin yeganə inzibati ərazi dairəsidir. İqlimi kontinentaldır. Orta temperatur yanvarda - 3,8°C, iyulda 26,9°C, illik yağıntı 236 mm-dir. Bəşər sivilizasiyasının ən qədim məskənlərindən olan Naxçıvanın 5000 ilə yaxın yaşı var. Bəzi antik və orta əsr tarixçi və coğrafiyaşünasları isə Naxçıvan şəhərinin əsasının eradan əvvəl 1539-cu ildə qoyulması barədə məlumat vermişlər.

Naxçıvan toponiminin müxtəlif etimoloji yozumları mövcuddur: "Naksuana" (Klavdi Ptolomey, eramızın II əsri), "Nəşəva", "Naqçuan", "Nəqşi-cahan" (orta əsr ərəb və fars mənbələrində) və sair. Şəhərin adını Nuh peyğəmbərlə də əlaqələndirirlər. Naxçıvan eramızdan əvvəl IX-VI əsrlərdə Manna, sonra isə Midiya dövlətlərinin tərkibində olmuş, eradan əvvəl 550-ci ildə Midiyanın süquta uğramasından sonra Əhəmənilər imperiyasının hakimiyyəti altına düşmüşdür.

Eradan əvvəl IV əsrin sonlarından eradan əvvəl I əsrin birinci yarısınadək Naxçıvan Atropatena dövlətinin tərkibində olmuş, eramızın əvvəlində Albaniya dövləti tərkibində şəhər və vilayət olmuşdur. III əsrdən etibarən Naxçıvan Sasanilər dövlətinin tərkibində idi. İran-Bizans müharibəsi zamanı 625-ci ildə Bizans imperatoru İrakli Naxçıvanı yerlə yeksan etdi. Sonralar bərpa olunan şəhər 654-cü ildə ərəblərin əlinə keçdi. IX-X əsrlərdə Naxçıvan əvvəllər Sacilər, sonralar isə Salarilər dövlətinin tərkibinə daxil olmuşdur. 1021-ci ildə Naxçıvanı Bizans imperatoru II Vasilinin qoşunları işğal etdi, 1064-cü ildə isə şəhər Səlcuqların hakimiyyətini qəbul etdi. XII əsrin 30-70-ci illərində Naxçıvan Eldəgizlər dövlətinin paytaxtı olmuşdur. Bu dövrdə Naxçıvan şəhəri xeyli inkişaf etmişdi.

1221-ci ildə Naxçıvan monqolların hücumuna məruz qaldı, 1257-ci ildə Elxanilər dövlətinə qatıldı. 1386-cı ildə Naxçıvanı Qızıl Orda xanı Toxtamış, 1387-ci ildə isə Teymur xan işğal etdi. Naxçıvan 1412-ci ildən Qaraqoyunlular, 1468-ci ildən isə Ağqoyunlular dövlətinin tərkibində idi. 1501-ci ildə şəhər Səfəvilər tərəfindən tutuldu.

Naxçıvan şəhəri XVIII əsrdə təşəkkül tapan Naxçıvan xanlığının sənətkarlıq, ticarət və eyni zamanda siyasi mərkəzi olmuşdu. 1795-1797-ci illər Ağa Məhəmməd şah Qacarın hücumları zamanı Naxçıvan xeyli tənəzzül etdi. 1827-ci ildə Naxçıvanı çar Rusiyasının qoşunları işğal etdi. 1828-ci ildə Rusiya ilə İran arasında bağlanmış Türkmənçay müqaviləsinə əsasən Naxçıvan Rusiyaya birləşdirildi. 1841-ci ildə isə Naxçıvan şəhəri qəza mərkəzinə çevrildi.

1918-ci ildə Naxçıvan şəhəri bu dövrdə yaranmış və qısa müddət ərzində fəaliyyət göstərmiş Araz-Türk Respublikasının, 1920-1923-cü illərdə Naxçıvan SSR-in, 1923-1924-cü illərdə Naxçıvan Muxtar Diyarının, 1924-1990-cı illərdə Naxçıvan MSSR-in paytaxtı olmuşdur. 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikasının paytaxtıdır. Naxçıvan şəhəri Azərbaycanın ən qədim maarif, elm və mədəniyyət mərkəzlərindən biridir. Naxçıvan şəhərində Heydər Əliyev adına

Hərbi Lisey, 3 ali, 3 orta ixtisas, 19 ümumtəhsil məktəbi, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, Naxçıvan Dövlət Filarmoniyası, Naxçıvan Dövlət Şəkil Qalereyası, İlham Əliyev adına Olimpiya İdman Kompleksi, Üzgüçülük Mərkəzi, "Dinamo" İdman Cəmiyyətinin idman kompleksi və stadionu, Şahmat Məktəbi, 7 məktəbdənkənar və 9 məktəbəqədər tərbiyə müəssisələri, 8 kitabxana, Kitab evi, 4 klub müəssisəsi, 10 muzey, 6 musiqi məktəbi, Naxçıvan Turizm İnformasiya Mərkəzi, 3 mədəniyyət və istirahət parkı, "Gənclik" Mərkəzi, Diaqnostika Müalicə Mərkəzi, Doğum Mərkəzi, 3 xəstəxana, internet mərkəzi, ən müasir xidmət imkanlarına malik olan bank-maliyyə və mehmanxana infrastrukturları, dövlət orqanları və digər xidmət obyektləri vardır.

# BÖLMƏ II
## HƏR DAŞIN ALTINDA BİR TARİX YATIR

**Yaranışı qədim dövrlərə gedib çıxan Azərbaycanın mədəniyyət, elm mərkəzlərindən biri olan Naxçıvan özündə zəngin irsimizi qoruyub saxılayır. Bu irsin mühüm bir hissəsi Şərq memarlığını özündə əks etdirən tarixi abidələrimizdən ibarətdir.**

**Qədim tarixə, zəngin mədəni irsə malik Naxçıvan torpağı öz təbii gözəlliyi ilə fərqlənir. Tanrı bu bölgəyə bir-birindən gözəl, ezazkar təbiət mənzərələri bəxş edib. Bu qədim yurdun torpaqlarını qarış-qarış gəzdikcə hər obada, hər dağ çığırında bir sehrli aləm görmək olur.**

Dünyanın çoxsaylı xalqlarından, türk dünyasının isə ən böyük xalqlarından biri olan Azərbaycan xalqına müasir dünyada özünün çox mürəkkəb problemlərini həll etmək, qarşıdan gələn XXI yüzillikdə taleyüklü sınaqlardan zəfərlə çıxa bilməkdən ötrü ağır vəziyyətlərə duruş gətirmək psixologiyası, məğlubedilməzlik səhifələrini dirçəltmək əzmkarlığı aşılamaq son dərəcə vacibdir. Bu gün hər bir yurddaşımız öz tarixini daha dərindən öyrənməli, ona yiyələnməli, keçmişdə baş vermiş acı səhvlərin bir daha təkrar olunmasına yol verməmək ruhu ilə yaşamalıdır.

Azərbaycanımızın tarixi, onun ayrılmaz bir parçası olan Naxçıvanımızın keçmişi, Vətənin bu guşəsində yaşayan soydaşlarımızın tarixin ən ağır sınaq məqamlarından zəfərlə çıxmaq bacarığı, mübarizə ruhu, milli təsübkeşliyi olan, canında qeyrət zərrəsi gəzdirən hər bir yurddaşımız üçün misilsiz mücadilə məktəbidir.

Vətən oğlu üçün yurdun hər qarışı, Azərbaycanımızın hər bir yeri, doğma torpağın hər zərrəsi eyni dərəcədə əzizdir. Lakin bu gün hər bir azərbaycanlıya, Azərbaycan türkünə Böyük Azərbaycandan zorla ayrı salınmış Naxçıvanımız daha əzizdir, daha doğmadır.

Bu gün Naxçıvan, hər şeydən əvvəl, hər bir azərbaycanlının gözü önündə əzəmətlə ucalan canlı bir qeyrət abidəsidir. Bu abidə sanki bütün Vətən övladlarına bizim hər birimizə acı həqiqətlər və qanlı faciələrlə dolu bir tarix söyləyir. **SÖYLƏYİR Kİ, AZƏRBAYCAN BİR ZAMANLAR BÜTÖV, QÜDRƏTLİ VƏ BÖYÜK BİR SƏLTƏNƏT İDİ. O ZAMAN YURDUN CƏNUB-QƏRB TORPAQLARINI ƏHATƏ EDƏN VƏ SƏRHƏDDƏ YERLƏŞƏN**

**NAXÇIVAN DİYARI BİTİŞİK İDİ ANA VƏTƏNƏ- BÖYÜK AZƏRBAYCANA. LAKİN ZAMAN KEÇDİ, YAĞILAR ƏVVƏLCƏ İKİ YERƏ ŞAQQALADILAR, SONRA DA QƏLPƏ-QƏLPƏ QOPARIB DAĞITDILAR BÖYÜK AZƏRBAYCAN MƏMLƏKƏTİNİ. İRƏVANI, GÖYÇƏ MAHALINI, ZƏNGƏZURU, MEHRİNİ ƏLİMİZDƏN ALDILAR. İRANDAN OSMANLI TORPAQLARINDAN KÖÇÜRÜLÜB GƏTİRİLƏN ERMƏNİLƏRİ TOPLADILAR QƏRBİ AZƏRBAYCAN TORPAQLARINA. VƏ BİR ERMƏNİ DÖVLƏTİ, DAHA DOĞRUSU MÜHARİBƏ OCAĞI YARATDILAR QƏRBİ AZƏRBAYCAN ƏRAZİSİNDƏ. BÜTÜN QƏRBİ AZƏRBAYCAN ELLƏRİNDƏ YALNIZ NAXÇIVANIMIZ, YURDUN BU GUŞƏSİNİN NƏR İGİDLƏRİ DURUŞ GƏTİRƏ BİLDİLƏR BU QANLI QOVĞALARA...Bu gün bizdən Böyük Azərbaycandan zorla ayrı salınmış və düşmən əhatəsində yaşayan, mübarizə aparan, yalnız təkcə bir həyat körpüsü ilə Türkiyəmizə söykənən Naxçıvanımız bax bu acı həqiqəti söyləyir bütün Vətən oğullarına, yurdun bütün gəncliyinə, gələcək nəsillərə. Söyləyir ki, TARİXİ AZƏRBAYCANIN BÖYÜK AZƏRBAYCANIN QƏRB SƏRHƏDLƏRİ BAX BURADIR, BU YERLƏRDİR, NAXÇIVANDIR...Tarix təkrarlana-təkrarlana irəliləyir. Vaxt gələr yenidən Göyçə də, qədim İrəvan elləri də, Zəngəzur da, Mehri də ana Vətənə qovuşar və son qoyular Naxçıvan ayrılığına. O günlərin həsrəti ilə düşmən qarşısında dağ kimi durub, alınmaz qalaya çevrilib Vətən üçün qeyrət rəmzi, yağılar üçün göz dağı olan Naxçıvanımız.**

**Son dərəcə qədim və zəngin tarixi ilə hər bir Azərbaycan oğlu üçün, bütün türk dünyasından ötrü qurur mənbəyidir Naxçıvanımız. Yurdumuzun başqa yerlərindəki Azıx, Damçılı, Tağlar kimi çox qədim insan məskənləri ilə baş-başa verən Naxçıvanın qədim karst mağaraları bu diyarın bütün Azərbaycanla birlikdə planetimizin ən qədim insan məskənlərindən, ibtidai insanların formalaşdığı ərazilərdən biri olduğunu sübut edir.**

**Bütün Azərbaycan kimi, dünya sivilizasiyasının ayaq açıb yeriməyə başladığı Yaxın Şərq regionunda yerləşir Naxçıvan diyarımız. Dəmirqapı-Dərbənddən, Baş Qafqazın ətəklərindən başlayaraq cənuba doğru sıralanmış Göygöl, Göyçə və Urmiyə boyunca şərqə və qərbə doğru uzanıb gedən Azərbaycan torpaqlarında, o cümlədən Naxçıvanda nə qədər tarixi abidələr qoyub getmişlər ulu babalarımız?! Qədimdən də qədim olan şanlı tariximizin bu müqəddəs yadigarları içərisində xüsusi yer tutur qədim Naxçıvan abidələri.**

**Arxeoloqlarımızın aşkar etdikləri nadir tapıntılar bu diyarın dünyanın ən qədim əkinçilik və sənətkarlıq mərkəzlərindən biri olduğunu təsdiqləyir. Bu, bir həqiqətdir ki, bəşəriyyətin müasir mədəniyyət zirvəsinə yüksəlişində**

**məhz oturaq xalqlar, əkinçilik və sənətkarlıq mədəniyyəti qədim olan xalqlar mühüm rol oynamışlar. Məhz belə xalqdır bizim xalqımız, belə məmləkətdir bizim Azərbaycanımız, bizim Naxçıvanımız!**

**Dünyada o cümlədən də bütün Şərqdə şəhərsalma mədəniyyətinin ən qədim mərkəzlərindən biridir Naxçıvan diyarı. Dünyanın ən qədim şəhərlərindən biridir Naxçıvan. Arxeoloji tədqiqatlar təqribən 4000 il yaşı olduğunu sübut edir Naxçıvanın. Bütün Azərbaycan kimi, hər abidəsi zəngin bir tarixdir Naxçıvanımızın. Dünyanın ən qədim muzeyidir başdan-başa bütün Naxçıvan torpağı. Ən qədim tarixi Nuh peyğəmbərin adı ilə bağlıdır bu müqəddəs Azərbaycan torpağının. Ermənilərin Qafqaza köçürülməsindən min illərlə əvvəlki tarixi dövrlərə aid olan qədim Naxçıvan abidələrini "özününküləşdirməyə" çalışan erməni saxtakarları özlərini nə qədər oda – közə vursalar da, "dünya tarixinin Ermənistandan başladığını" sübut etmək üçün nə qədər dəridən-qabıqdan çıxsalar da, qədim Oğuz yurdu, türk məskəni olaraq qalır Naxçıvanımız, Yağılara gözdağı olan Naxçıvanımız!**

**Naxçıvan tarixi, eyni zamanda, bizim soykökümüzdə duran, yurdun şanlı tarixinə neçə-neçə zəfər səhifələri yazmış qəhrəman türk elatlarının da tarixidir. Ən qədim Çin mənbələri də daxil olmaqla dünyanın çox müxtəlif dillərində olan məxəzlərdə adı çəkilən cəngavər Kəngərli türklərinin tarixidir Naxçıvanımızın tarixi. Ən qədim zamanlardan başlayaraq bütün əsrlər boyu Azərbaycanın cənub-qərb torpaqlarının Kəngərli yurdunun keşiyində duran bu cəngavər türk tayfası sonralar Rusiyanın və İranın işğalçı ordularına qarşı ölüm-dirim çarpışmalarında da türkün zəfər salnaməsinə neçə-neçə qızıl səhifələr yazmış, Vətənə neçə-neçə sərkərdələr, generallar bəxş etmişdir!..**

**Azərbaycanımızın qədim dövlətçilik tarixində özünəməxsus yer tutur Naxçıvan diyarı. 5000 illik dövlətçilik tariximizdə, Vətənin cənub-qərb sərhədlərinin yağılardan qorunub saxlanmasında nə qədər igidliklər göstərib Naxçıvanımız?! Qədim Azərbaycanın Bizans imperiyası ilə sərhəd bölgəsində yerləşən Naxçıvan daim Qərbdən gələn səlibçi-xristian dalğalarına sinə gərməli olmuş, Bizansın və Qərb dünyasının silahlandırıb irəliyə buraxdığı erməni quldurlarının Vətən torpaqlarına soxulmasının qabağını hünərlə saxlamışdır.**

**Müqəddəs peyğəmbərimizin zamanında və bundan sonrakı dövrlərdə Oğuzun "qaradonlu kafirlər"ə qarşı ölüm dirim çarpışmalarının ən qaynar sərhəd bölgələrindən biri olmuşdur Naxçıvan diyarı. O zaman Baş Qafqazın ətəklərindən başlayaraq Naxçıvanadək başdan-başa bütün Qərbi Azərbaycan torpaqları arxasında Bizans imperiyası və Avropa səlibçilərinin durduğu "qara donlu kafirlər"ə qarşı qanlı çarpışmalar cəbhəsi idi. Bu cəbhədə yağılarla ölüm-dirim savaşına qalxan Oğuz igidləri təkcə doğma Vətənin**

**deyil, həm də ümumiyyətlə, müqəddəs dinimizin İslamın müdafiəsinə qalxmışdılar. Məhz bu ölüm-dirim çarpışmaları torpağının düşmən tapdağına çevrilməməsi üçün misilsiz qəhrəmanlıqlar göstərmiş, Şəkturxaqan, Qıpçaq xaqan kimi şanlı türk sərkərdələri Əlincə qalasını, bütün Naxçıvanı ələ keçirməyə çalışan erməni Bizans səlibçi quldurlarına qan uddurmuşdular. Naxçıvanın, Göyçənin, Alagöz yaylaqlarının, Qarabağın, Gəncənin, Şəkinin bütün qərbi və şimal-qərbi Azərbaycan torpaqlarının "qara donlu kafirlər"in təcavüzündən qorunması zamanı Oğuz igidlərinin, o cümlədən Naxçıvan bahadırlarının göstərdikləri misilsiz qəhrəmanlıqlar barədə ilk mənbələrdə nə qədər məlumatlar, maraqlı faktlar var?! Bu gün hər bir Azərbaycan türkünün başını ucadan da uca tutaraq qürurlanmağa haqqı var ki, Naxçıvanın, qəhrəman Əlincə qalasının, Göyçənin, Qarabağın, Gəncənin, Şəkinin qarı düşmənlərdən qorunması üçün onun göstərdiyi misilsiz igidliklərlə dolu olan şanlı qəhrəmanlıq tarixinin qızıl səhifələri üzərində Dədəmiz Qorqudun silinməz möhürü vardır, daha doğrusu, bu şanlı tarixi yaşadan ən qiymətli mənbə məhz "Kitabi-Dədə Qorqud" dastanlarıdır.**

**Bu gün Naxçıvanımızın şanlı tarix salnaməsini vərəqləyərkən hər bir Vətən övladı onu da unutmamalıdır ki, boynumuzda çox ağır bir qeyrət borcu da var- Dədəmiz Qorquddan, basılmaz Oğuz igidlərindən bizə əmanət qalmış qədim Göyçəni, İrəvanı, Qarabağı, Zəngəzuru müasir dövrün səlibçilərindən qaytarıb geri almaq və mühasirədə qalmış Naxçıvanı Kiçik Azərbaycanı Böyük Azərbaycana Ata Yurduna qovuşdurmaq borcu!..**

**Azərbaycan dövlətçiliyinin tarixində mühüm rol oynamış Naxçıvan diyarının, qədim Naxçıvanımızın ən parlaq çağı Azərbaycanda Atabəylər Eldəgizlər dövlətinin hökmranlığı dövrüdür. O zaman bütün Azərbaycan torpaqlarını, habelə İran körfəzinə qədər çox geniş əraziləri əhatə edən böyük bir imperiyanın Eldəgizlər dövlətinin paytaxtı olan Naxçıvan daha da böyüdü, tərəqqi etdi, bütün Yaxın və Orta Şərqin böyük siyasi, iqtisadi və mədəniyyət mərkəzlərindən birinə çevrildi. O zamankı Naxçıvanda insan fəaliyyətinin bir çox sahələri ayrı-ayrı məktəblər səviyyəsinə yüksəldi. Böyük Əcəminin bütün Yaxın və Orta Şərq memarlığının inkişafına güclü təkan vermiş məşhur memarlıq məktəbi də məhz bu dövrdə yaranıb formalaşmışdı.**

**Naxçıvan bütün orta əsrlər boyunca Azərbaycan torpaqlarını ələ keçirməyə çalışan böyük imperiyaların hərbi qüvvələrinə qarşı, neçə-neçə cahangirlərə qarşı xalqımızın azadlıq mübarizəsində fəal iştirak etmişdir. Dünyanın neçə-neçə ölkələr fəth etmiş, paytaxtlar ələ keçirmiş ən qüdrətli sərkərdələri belə on illər boyunca mühasirədə saxladıqları Əlincə qalasının qəhrəman müdafiəçilərini diz çökdürə bilməmişlər.**

**Naxçıvan Azərbaycanın ən qüdrətli xanlıqlarından biri olduğu dövrdə də dövlətçilik tariximizdə, qədim dövlətçilik ənənələrimizin qorunub saxlanmasında mühüm rol oynamışdır. XVIII yüzillikdə və XIX yüzilliyin əvvəllərində bütün Azərbaycan torpaqlarına yiyələnməyə çalışan İran, Rusiya, və Osmanlı imperiyalarına qarşı Yurdun cənub-qərb torpaqlarının qorunub saxlanmasında Kəngərli soyundan olan məşhur sərkərdələrimizin Naxçıvan xanlarının çox mühüm rolu olmuşdur.**

**XIX yüzilliyin əvvəllərində Azərbaycan Rusiya imperiyasının qanlı işğalçılıq müharibələri meydanına çevrildikdə Naxçıvan, İrəvan və Qarabağ xanlıqları tarixin daha ağır sınağı qarşısında qaldılar. Rusiya ordusunda xidmət edən erməni generalları əllərinə düşmüş növbəti fürsətdən istifadə edərək Azərbaycan əhalisini kütləvi surətdə məhv edir, İranın və Osmanlı dövlətinin işğal olunmuş ərazilərindən erməniləri kütləvi surətdə Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının ərazisinə köçürüb gətirir, ən əlverişli strateji məntəqələrdə, münbit torpaqlarda yerləşdirir, silahlandırıb azərbaycanlılar üzərinə qaldırırdılar. Rusiya imperiyasının işğalşı ordusu, həmin orduda xidmət edən erməni generallarının başçılıq etdikləri erməni quldur dəstələri Azərbaycan xalqına qarşı sözün əsl mənasında, amansız soyqırımı siyasəti həyata keçirirdilər. İmperiya generalları elə müharibənin gedişindəcə çox çirkin və məkrli bir planı həyata keçirməyə başlamışdılar. Onlar Azərbaycanı Türkiyədən ayrı salmaq, bununla da Osmanlı dövlətinin bütün türk dünyası ilə əlaqəsini kəsmək məqsədilə iki qardaş ölkənin arasında gələcəkdə Rusiyanın əlində bir alət rolu oynayacaq erməni dövləti yaratmaq planını ələ götürmüşdülər. "Böyük Ermənistan" xülyası ilə yaşayan erməni generalları və onların başçılıq etdikləri quldur dəstələri bu planı həyata keçirmək üçün Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının ərazilərinin Azərbaycan türklərindən "təmizlənməsində" xüsusi cənfəşanlıq göstərirdilər. Naxçıvan tarixinin bu vaxtdan başlanan dövrü bütün varlığı ərzində bu diyarın ən mürəkkəb, ən qanlı sınaqlar dövrüdür. Bu dövrdə özündən qat-qat güclü düşmənlərin böyük dövlətlərin nizami hərbi qüvvələrinə qarşı tariximizə nə qədər şanlı mübarizə səhifələri yazmışdır Naxçıvan camaatı!**

**XIX yüzilliyin əvvəllərində Azərbaycan Rusiya ilə İran arasında bölüşdürüldükdən sonra Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb sınaqlar dövrünə qədəm qoydu. Xalqlar həbsxanası olan Rusiya imperiyası özgə torpaqlarını mənimsəyib öz içərisində əritmək və əsarət altına salınmış xalqları assimilyasiyaya uğradıb yox etmək sahəsindəki "zəngin" təcrübəsini Şimali Azərbaycanda bütün amansızlığı ilə həyata keçirməyə başladı. Saysız – hesabsız inzibati islahatlarla, Azərbaycanın ənənəvi tarixi xəritələrinin doğranıb tökülməsi ilə, dilimizin, mədəniyyətimizin sıxışdırılması ilə qədim**

dövlətçilik ənənələrimiz, milli-mənəvi varlığımız məhv edilirdi. İmperiyanın Azərbaycan xalqına qarşı həyata keçirdiyi ən qəddar siyasət Qərbi Azərbaycan torpaqlarında İrəvan və Naxçıvan xanlıqlarının ərazisində “Erməni vilayəti”nin yaradılması və xüsusi olaraq silahlandırılmış erməni quldur dəstələri tərəfindən dinc azərbaycanlı əhalisinə qarşı soyqırımlarının başlanması idi. Məhz belə bir cinayətlər qanlı siyasətin həyata keçirildiyi dövrdə müstəmləkəçi rus qoşunları və silahlı erməni quldur dəstələrinin əhatəsində yaşayan Naxçıvan və İrəvan türkləri çox ağır və tarixi seçim qarşısında qalmışdılar: ya güclü düşmənə sinə gərərək doğma torpaqlarda yaşayıb mübarizə aparmaq, ya da tamamilə qırılıb məhv olmamaq üçün ata-baba yurdlarını tərk etmək!

Qədim Naxçıvanın Kəngərli yurdunun qəhrəman Azərbaycan oğulları birincini seçdilər. Amansız imperiya rejiminin və azgın erməni quldurlarının ara verməyən soyqırımlarına, dözülməz hərbi siyasi təzyiqlərinə duruş gətirdi Naxçıvan camaatı!

Yağılara qarşı qəhrəmanlıq mübarizəsi tariximizdə silinməz izlər buraxmış Naxçıvanımız Birinci Dünya Müharibəsinin od-alovundan da qürurla, başucalığı ilə çıxdı. Tarixin bütün sərt dönüşlərində öz qoşunlarına qarşı Qafqaza hücum edən güclü düşmənlərə, ilk növbədə “xristian qardaşlarına” xidmət göstərməyə vərdiş etmiş ermənilər Birinci Dünya müharibəsi dövründə öz xəyanətkar xislətlərini daha qabarıq büruzə verdilər. Çar generalları tərəfindən təpədən dırnağadək silahlandırılmış erməni quldur dəstələri müharibə içərisində müharibə aparırdılar. İmkan ələ düşmüşkən Şərqi Anadolunun və Azərbaycanın türk əhalisini məhv edib “dənizdən dənizə Böyük Ermənistan” dövləti yaratmaq planını həyata keçirməyə çalışan daşnak quldurları Naxçıvan, İrəvan və Zəngəzur bölgələrində, Şərqi Anadoluda xüsusilə qəddarcasına qırğınlar törətdilər. Stepan Şaumyan başda olmaqla daşnak-bolşevik guruhunun Bakıda hakimiyyəti ələ keçirməsi ilə vəziyyət daha da ağırlaşdı. Cənubi Qafqazın müsəlman türk əhalisinin planlı surətdə məhv edilməsinə başlanıldı. Nəticədə, Yurdumuz üçün yaranmış çox ağır beynəlxalq və daxili vəziyyətdə Azərbaycan Xalq Cumhuriyyəti müstəqil dövlətimizin yaşaması xatirinə Vətənimizin əzəli torpaqlarından biri olan İrəvan mahalından ermənilərin xeyrinə əl çəkməyə məcbur oldu. Cənubi Qafqazda sovet rejimi qurulduqda daşnaklar bu dəfə Kremlə üz tutdular, bolşeviklərlə sövdələşdilər. Əvvəlcə tarixi Azərbaycan torpaqlarında “Ermənistan SSR” adlanan bolşevik dövlət qurumu yaradıldı, sonra isə Azərbaycanın daha bir tarixi vilayəti-Zəngəzur mahalı Ermənistan SSR-ə qatıldı.

**Zəngəzurun Ermənistana verilməsi ilə əslində Naxçıvanımız ana Vətəndən ayrı düşdü və daşnaklardan ötrü əsas məqsədə yetmək-Naxçıvanı ələ keçirmək üçün daha əlverişli şərait yarandı. Bu vaxtdan etibarən Naxçıvanımız özünün bütün tarixi ərzində ən çətin sınaqlar qarşısında qaldı. Öz tarixinin bu ağır dövründə də 1918-1923-cü illərdə Yurdumuzun bu bölgəsində baş verən hərbi-siyasi proseslərin, bununla əlaqədar çərəyan edən beynəlxalq oyunların da müzəffər qəhrəmanı yenə Naxçıvan camaatı oldu. Naxçıvan bölgəmizin əhalisi öz əyilməz mübarizliyi ilə, həm də 1921-ci ilin əvvəlində ağır təzyiqlər şəraitində keçirilən rəy sorğusu zamanı qəti olaraq nümayiş etdirdi ki, o heç kəs tərəfindən diqtə olunana idarəçiliyi qəbul etməyəcək, ana Vətəndən-Azərbaycandan ayrılmayacaqdır. Beləcə, Yurdun qərb və cənub –qərb torpaqlarını əhatə edən tarixi mahallarımız işərisində təkcə Naxçıvanımız, bu bölgəmizin qəhrəman camaatı özündən qat-qat qüvvətli düşmənlərin güclü hərbi –siyasi təzyiqlərinə, törətdikləri qanlı qırğınlara axıradak duruş gətirdi və öz qətiyyəti sayəsində, həmçinin qardaş Türkiyənin beynəlxalq himayəsi sayəsində muxtariyyət haqqı qazandı.**

**Naxçıvanımızın muxtariyyət haqqını 1921-ci il martında Rusiya ilə Türkiyə arasında imzalanmış Moskva müqaviləsi və həmin ilin oktyabrında Rusiya, Azərbaycan, Türkiyə, Gürcüstan və Ermənistan arasında bağlanmış Qars müqaviləsi də təsbit etdi. Bundan sonra ermənilərin sovet rəhbərliyinə göstərdiyi müxtəlif xarakterli təsirlərə, təzyiqlərə baxmayaraq, Naxçıvan camaatının qətiyyəti və əzmkarlığı sayəsində, nəhayət 1924-cü il fevralın 9-da Azərbaycan SSR Mərkəzi İnqilab Komitəsi Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında qərar qəbul etdi. Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında fərmanında qeyd olunduğu kimi, “Bu, Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət idi”.**

**Sovet hakimiyyəti illərində üzdə bolşevik, batində isə qatı daşnak olan erməni millətçiləri Naxçıvanı Ermənistana qatmaq planlarından bir an belə əl çəkmədilər. Moskvadakı himayəçilərinin köməyi ilə onlar bu dəfə Naxçıvan torpaqlarını qəlpə-qəlpə qoparıb ələ keçirmək, bu yolla Naxçıvan bölgəmizi faktiki olaraq yox etmək planını ələ götürmüşdülər. Beləcə, 1929-cu ildə Naxçıvanın 657 kvadratkilometrlik böyük bir ərazisi Ermənistana qatılmış, 1930-cu ildə isə Naxçıvandan alınıb Ermənistana verilmiş Azərbaycan torpaqlarında ayrıca Mehri rayonu yaradılmışdır. Sonrakı illərdə də, yaranan hər bir əlverişli fürsətdən, xüsusilə də hər dəfə Azərbaycanın rəhbərliyində baş verən dəyişikliklərdən istifadə etməyə çalışan erməni millətçiləri Azərbaycana qarşı yeni-yeni ərazi iddiaları irəli sürmüş, Naxçıvanın**

muxtariyyətini yox etmək üçün bütün fitnəkarlıqlara əl atmışlar. Xaricdə yaşayan ermənilərin qabaqcadan düşünülmüş plan əsasında Ermənistana toplanması, sovet rəhbərliyinin müxtəlif yollarla ələ salınması, xaricdəki erməni diasporunun fəal surətdə bu işə cəlb olunması, bir sözlə, Naxçıvana və Dağlıq Qarabağa olan iddiaların yenidən çanlandırılması yaxın keçmişin xatirimizdə yaşayan acı mənzərəsidir.

Əsrimizin 90-cı illərində SSRi-nin dağılması nəticəsində yaranmış yeni beynəlxalq şəraitdən istifadə edən erməni millətçiləri, nəhayət, Naxçıvanı və Dağlıq Qarabağı qəti olaraq Ermənistana qatmaq planını reallaşdırmağa başladılar. Cənubi Qafqazda öz hərbi –siyasi hegemonluğunu saxlamağa çalışan Rusiyanın imperiyapərəst qüvvələri yenidən "erməni kartı"na əl atdılar. Ermənilər öz qoşunlarına qarşı yenidən Rusiyanın əlində alətə çevrildilər. Bu dövrdə ermənilər və onların havadarları olan Rusiya hərbçiləri tərəfindən hərbi –siyasi və iqtisadi blokadaya salınmış Naxçıvan xüsusilə ağır vəziyyətə düşdü. Bu dəfəki vəziyyət onunla fərqlənirdi ki, ana Vətəndən – Böyük Azərbaycandan da Naxçıvanın harayına cavab verən yox idi. Səriştəsiz rəhbərlər, əcnəbilərə satılmış oyuncaq kürsü torpaqlarını hərraca qoymuşdular. Təkcə Naxçıvanın deyil, bütün Azərbaycanın halı ağır planları reallaşmaqda , Yurdumuz, o cümlədən də Naxçıvanımız bir siyasi varlıq kimi cənubi Qafqazın siyasi xəritəsindən yox edilmək ərəfəsində idi. Tariximizin bu ölüm –dirim anında Vətənin, millətin dadına Ulu Tanrının bu günlər üçün qoruyub saxladığı nadir şəxsiyyətimiz yetişdi. O zaman bizim –bütün Azərbaycanın ən müasir silahlarla silahlanmış məkrli yağıların, tarixi düşmənlərin qarşısında əliyalın qalmış xalqımızın yeganə silahı, nicat işığı, ümid yeri Heydər Əliyev şəxsiyyəti idi. Məhz bu şəxsiyyətimiz də "olum, ya ölüm" savaşımızın ən ağır cəbhəsindən Naxçıvandan qurtuluş mücadiləsinə qalxdı. Müasir daşnakların sovet sərhəd qoşunları ilə birləşərək üzük qaşı kimi mühasirəyə aldığı Naxçıvanda təkcə həmin bölgəmizin deyil, bütün Azərbaycanın müqəddəratı həll olunurdu. Ağlasığmaz dərəcədə ağır olan bu mürəkkəb tarixi şəraitdə Heydər Əliyev şəxsiyyəti özünün yeganə silahı ilə - misilsiz siyasi dühası və dövlət müdrikliyi sayəsində Naxçıvan camaatının mübarizliyinə, əzmkarlığına arxalanaraq qəhrəman Kəngərli yurdunu tarixin ən ağır sınağından çıxara bildi!

90-cı illərin əvvəlində ağır blokada şəraitində düşmənə sinə gərən Naxçıvanda, eyni zamanda, bütün Azərbaycanda qurtuluş savaşı başlanmışdı. Milli müstəqilliyimizin ilk addımları məhz Naxçıvanda atılırdı. Muxtar Respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılıb atılması, Naxçıvan Ali Sovet"inin, "Ali Məclis" adlandırılması, Azərbaycan Xalq Cumhuriyyətinin üçrəngli bayrağının ilk dəfə burada Naxçıvan Muxtar

**Respublikasının dövlət bayrağı kimi qəbul olunması və qaldırılması, Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, SSRİ-nin saxlanılması barədə referendumdan imtina olunması, 1990-cı ilin 19-20 yanvar faciəsinə siyasi qiymət verilməsi, dünya azərbaycanlılarının həmrəylik gününün qeyd olunması barədə tarixi qərar çıxarılması, bir çox digər cəsarətli addımlar Naxçıvanımızı qurtuluş mücadiləmizin önünə çıxardı. Qədirbilən xalqımız özünün xilaskar oğlunu Naxçıvandan paytaxta çağırdı, Azərbaycanın taleyini ona etibar etdi. Qurtuluş savaşına Naxçıvanda başlayan, Kəngərli yurdunu Vətən üçün qoruyub saxlayan Heydər Əliyev bütün Azərbaycanın qa qurtuluş savaşının qalibi, Azərbaycan dövlətçiliyinin xilaskarı oldu.**

**Bu gün sabitlik və əmin-amanlıq şəraitində yaşayan, dünya birliyində, öz layiqli yerini tutan müstəqil Azərbaycanımız əbədi olaraq qoynuna aldığı qədim Naxçıvanımızla birlikdə inamla özünün işıqlı sabahına doğru addımlayır.**

# B Ö L M Ə III
# ÖZƏLLİKLƏ GÖZƏLLİYİN VƏHDƏTİ

**Qədim zamanlardan üzü bəri maddi və mənəvi sərvətlərinə görə Azərbaycan həmişə öz zənginliyi ilə seçilib. Doqquz iqlim qurşağında yerləşən respublikamızın hər bir bölgəsinin özünəməxsusluğu var. Əlbəttə, bu, təkcə təbiətlə bağlı deyildir. Yazılı mənbələrdən tutmuş şifahi deyimlərə qədər tez-tez eşitmişik ki, Şirvan şairlər, Qarabağ, Abşeron muğam ustaları, Göyçə, Tovuz, Qazax, Gədəbəy, Borçalı bölgəsi aşıqlar oylağıdır. Mil, Muğan cəfakeş insanları, Şəki, Lənkəran el sənətkarları ilə fərqlənib. Vaxtilə Qarabağ, Şirvan, Quba xalçalarının şöhrəti dünyanı dolaşırdı. Şuşalı xanımların tikmələri əllərdə gəzərdi. Hər bir bölgənin maddi nemətləri də belə fərqli olardı. Mətbəxləri, süfrələri seçilərdi. Bütün bu özəlliklər isə mütləq millətin mənəvi gözəlliyi ilə bağlanardı.**

**Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra müəyyən köçürülmə əməliyyatı keçirilsə də, dəyişdirilmələrin elə də əhəmiyyətli fərqi olmadı. Çünki təbiətin öz qanunu var. Bir tərəfdən də tarixin yaddaşı daha möhkəmdir.**

**Məmləkətimizin digər guşələri arasında elə bölgələr var ki, yuxarıda saydığımız məziyyətlərin əksəriyyətinin nümunəsi məhz orada insanlıq var olan gündən pərvəriş tapıb.**

**Təbiət etibarı ilə son dərəcə maraqlı coğrafi relyefə və şəraitə məxsus olan Naxçıvan Muxtar Respublikası təkcə dağlarının ucalığı deyil, təbiətinin rəngi ilə belə, fərqlənir. Daşından, qayasından qədimlik tökülür. Ağacları, gülləri, çiçəkləri də fərqlidir. Suyu, havası, balı, qaymağı, təndir çörəyi o qədər dadlıdır ki... Heç yerdə Ordubadın əriyindən, hülüsündən, adi tərxunundan belə, tapılmaz. Vayxırın, Badamlının su mənbələri dünyada məşhurdur. Bu yurdun insanları mərd, səxavətli, olduqca qonaqpərvərdirlər.**

**Naxçıvanın təkcə XX əsrdə Azərbaycan ədəbiyyatına, ictimai-siyasi həyatına, elminə, təsviri sənətinə verdiyi nəhəng şəxsiyyətlər siyahısını tutsaq, heyrətedicidir. Bəşəriyyətin qədim yaşayış məskənlərindən Nuh peyğəmbərin gəmisinin yendiyi yer kimi səciyyələndirirlər. Bu tarixdir. Nəqşı-cahanın hər qarışı müqəddəsdir. Bu paklğı yaradan təkcə zəyarətgahları, səcdə edilən pirləri, Quranda adı çəkilən Əshabu-Kəfi deyil. Dünyada analığa, qadınlığın**

şərəfinə yaradılan abidənin-Mömünə Xatun türbəsinin məhz Naxçıvanda olması, qorunması, əzizlənməsi, bir növ muxtar respublikanın rəmzinə çevrilməsi bu bölgədə yaşayanların zəngin mənəviyyatından xəbər verir.

Ötən əsr Naxçıvanın biblioqrafiyasında-tarixin yaddaşında bir də ona görə əbədiləşdi ki, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə bu qədim şəhərdə növbəti bir müqəddəs ünvan-Cavidlər xatirə kompleksi yaradıldı. İndi bu türbədə uyuyan dörd müqəddəs varlığın ruhu Naxçıvanın əbədi paklıq simvoludur.

Türkiyə ilə 11 kilometrlik sərhədi istisna olmaqla Naxçıvan Muxtar Respublikası əslində düşmən əhatəsində yaşadığından daim oyaq və ayıq olmağa məcburdur. Bir anlıq sayıqlığı itirmək fürsəti axtaran düşmənə girəvə yaratmaq deməkdir. Buna görə də naxçıvanlılar bir kiprik kimi sıralanaraq gözün-Vətənin keşiyini çəkirlər.

Bizim bu əsrarəngiz və dilbər bölgəmizə yolumuz ancaq hava nəqliyyatı vasitəsilə mümkündür.

Ötən əsrin sonlarında yurdumuzun Ermənistanla sərhəd bölgələrinin hamısında olduğu kimi, Naxçıvanda da gərgin günlər yaşandı. Erməni quldurlarının torpağımızın bu qiymətli parçasını zəbt etmək niyyəti baş tutmadı. Atılan güllələr boşa getdi. Çünki naxçıvanlılar inandıqları, arxalandıqları ümummilli liderimiz Heydər Əliyevlə birlikdə idilər. Məhz ulu öndərin düşünülmüş addımları, müdrik siyasəti Nəqşi-cahanı erməni murdarlığından qorudu. Doğrudur, torpaq nəfisli, xəbis qonşularımız olan ermənilər hələ də öz bədxahlıqlarından geri çəkilməyiblər. Goreşənliklərini ciddi-cəhdlə davam etdirirlər. Amma indi hər şey dünyanın tərəqqipərvər, ağıllı, demokratik ruhlu, nüfuzlu insanlarına bəllidir.

İndi Naxçıvanın işıqları gur yanır. Ocaqları alovludur. Övladları həvəslə yaşayıb-yaradırlar. Ölkə başçısı İlham Əliyevin tez-tez Naxçıvana getməsi burada ömür-gün sürənlərin həyat eşqini, dözümünü, qurub-yaratmaq əzmini daha da artırır. Muxtar respublikanın paytaxtı nəinki Azərbaycanın, dünyanın ən müasir və gözəl şəhərlərindən birinə çevrilib, onun ayrı-ayrı royonlarında-Ordubad, Culfa, Şərur, Şahbuz, Sədərək, Babək də həyat qaynayır. Bütövlükdə, respublikamızı bürümüş coşqunluq dağlar qoynunda yerləşən bu gözəl bölgəmizdə də duyulmaqdadır.

Xalq şairi Səməd Vurğunun bir beytində deyilir: “Təbiət ilhama çağırır məni”. Tək bircə dəfə Naxçıvanı gəzmək bəhs edər ki, qəlbin ilhamla dolsun, könlündən poetik duyğular keçsin. Naxçıvanın qəlbi ehtizaza gətirən gözəllikləri, qeyri-adi mənzərələri, alicənab insanları olduqca çoxdur.

## NAXÇIVAN TARİXİ ŞƏXSİYYƏTLƏR DİYARIDIR.

**Azərbaycan tarixən öz alimləri, elm xadimləri ilə bəşər tarixinə böyük izlər qoymuş, mühüm elmi nailiyyətlərə müəlliflik etmişdir. Təqdirəlayiq haldır ki, bu ənənə bu gün də davam etdirilir və azərbaycanlı alimlərin adları dünya elm salnaməsində iftixarla səsləndirilir. Bu, xalqımızın malik olduğu intellektual potensialı, elmə, təhsilə bağlılığı, maariflənməyə kütləvi meyli bariz şəkildə əks etdirilir. Ancaq bu xüsusda bir məqam özünü daha aşkar göstərir. Azərbaycan elminin son illərdə daha böyük qlobal əhəmiyyətli elmi yeniliklərə imza atmasının vacib şərtlərindən biri də dövlətin bu sahəyə, elm xadimlərinə göstərdiyi böyük qayğı və diqqətdir.**

**Naxçıvan elm xadimləri ilə yalnız Azərbaycan miqyasında məşhurlaşmayıb, adlı-sanlı alimləri sayəsində bölgənin ən nüfuzlu elm mərkəzi kimi dünyada hələ xeyli əvvəl tanınıb. Ötən yüzillikdə elmin müxtəlif sahələrində mühüm nailiyyətlər qazanmış çoxsaylı yetirmələri muxtar respublikanın şöhrətini zirvələrə qaldırmışlar. Naxçıvanda doğularaq elmə bağlılıqlarını məhz bu bölgədən alan minlərlə alim, yüzlərlə professor, elmlər doktoru, MEA-nın həqiqi və müxbir üzvləri bu gün Azərbaycanın intellektual pontensialının əsasını təşkil edir.**

### HEYDƏR ƏLİYEV



Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyev 10 may 1923-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur.

Heydər Əliyev Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra 1939-41-ci illərdə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. 1941-ci ildən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Xalq Komissarları Sovetində şöbə müdiri işləmişdir. Heydər Əliyev 1944-cü ilin mayında Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmiş, Leninqradda (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, general rütbəsinədək

yüksəlmişdir. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinın (1969) plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinın birinci katibi, Mərkəzi Komitənin büro üzvü seçilmişdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinın avqust (1969) plenumunda Heydər Əliyevin məruzəsi əsasında respublikada xalq təsərrüfatına və mədəni quruculuğa rəhbərliyi əsaslı surətdə yaxşılaşdırmaq, dövlət və əmək intizamını möhkəmləndirmək, kadrların məsuliyyətini artırmaq xətti müəyyən olunmuşdur. Bu xətt Heydər Əliyevin məruzə və çıxışlarında inkişaf etdirilərək elmi surətdə əsaslandırılmış, respublikanın iqtisadi-siyasi həyatında xalqın mənəviyyatına mənfi təsir göstərən tənəzzül meyllərinin qarşısının alınması, sağlam mənəvi-psixoloji iqlimin, ictimai ovqatın bərqərarlaşması uğrunda mübariz fəaliyyət proqramı olmuşdur. Heydər Əliyevin Azərbaycan Kommunist Partiyasının 28-ci (1971, mart) və 29-cu (1976, yanvar) qurultaylarında hesabat məruzələri bu proqramın həyata keçirilməsində mühüm əməli rol oynamışdır. Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinın 24-cü (1971, mart-aprel) və 25-ci (1976, fevral-mart) qurultaylarında çıxış etmiş, həmin qurultaylarda Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinın üzvü seçilmişdir. Heydər Əliyev 1976-cı ilin martında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinın Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir.

SSRİ Konstitusiyası komissiyasının üzvü olan Heydər Əliyev ölkənin yeni Konstitusiyasının hazırlanmasında fəal iştirak etmiş və Konstitusiyanı qəbul edən SSRİ Ali Sovetinin sessiyasında çıxış etmişdir (1977, oktyabr). Heydər Əliyev Azərbaycan Sovet Sosialist Respublikasının yeni Konstitusiyasının layihəsini hazırlayan komissiyanın sədri kimi Azərbaycan dilinin Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili olması haqqında maddənin respublika konstitusiyasına daxil edilməsinə nail olmuşdur (1977, iyul). Azərbaycan Sovet Sosialist Respublikasının Ali Sovetinin sessiyasında "Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasının (Əsas Qanunun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında" məruzə etmişdir (1978, aprel).

## İlham Əliyev



Əliyev İlham Heydər oğlu 1961-ci il dekabr ayının 24-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomatdır. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitunu (MDBMİ) bitirmişdir (1982). Tarix elmləri namizədidir (1985). 1982-ci ildən əmək fəaliyyətinə başlamış, MDBMİ-də aspirant, müəllim olmuşdur. 1991-ci ildən Moskvada "Oriyent'" şirkətinin baş direktoru vəzifəsində işləmişdir. 1994-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti təyin olunmuşdur, 1997-2003-cü illərdə ARDNŞ-in birinci vitse-prezidenti vəzifəsində çalışıb. 2003-cü ilin avqust ayından həmin ilin oktyabr ayının 15-dək Azərbaycan Respublikasının baş naziri olub. İlham Əliyevin respublikada quruculuq işlərinin başlanmasında, iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin möhkəmlənməsində, xüsusilə neft-qaz yataqlarının birgə işlənilməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında müqavilənin bağlanmasında və gerçəkləşdirilməsində, ümumiyyətlə, Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır. Neft strategiyasının həyata keçirilməsi, 21 neft müqaviləsinin imzalanması nəticəsində xarici şirkətlər 1994-2000-ci illərdə Azərbaycana 800 milyon ABŞ dolları məbləğində bonus vermişdir. Azərbaycanın neft sektorunda 30 mindən artıq yeni iş yeri açılmışdır. İlhamƏliyev 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin (AMOK) prezidentidir. Uşaqların, yeniyetmə və gənclərin idmana cəlb olunmasında, respublikada idmanın inkişafı üçün şərait yaradılmasında, Azərbaycan idmançılarının mötəbər Beynəlxalq yarışlarda uğurlar qazanmasında AMOK-un prezidenti kimi onun böyük xidməti var. Bakıda idmançılar və olimpiyaçılar üçün ən yüksək dünya

standartlarına cavab verən böyük idman kompleksi tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmış, Naxçıvanda, Gəncə, Quba, Şəkidə və s. yeni, iki salondan ibarət idman kompleksləri inşa olunmuşdır. AMOK-un məqsədyönlü fəaliyyəti sayəsində 2000-ci ilin sentyabrında Sidneydə (Avstraliya) XXVII Olimpiya oyunlarında Azərbaycan idmançıları böyük uğur - 2 qızıl və 1 bürünc medal qazanmış, oyunlarda iştirak edən 198 dövlət arasında 34-cü yeri tutmuşdur.

Siyasi xadim kimi İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmışdır. O, Azərbaycan nümayəndə heyətinin başçısı kimi ABŞ, İngiltərə, Türkiyə, Avstraliya və s. ölkələrdə keçirilən bir çox beynəlxalq və regional konfrans və konqreslərin iştirakçısı olmuş, məruzələrlə çıxış etmişdir.

Ölkədə demokratik islahatlar aparılmasında, demokratik və hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) I qurultayında (1999) partiya sədrinin müavini, II qurultayında (2001) isə mövqeyini dəstəkləyən bir sıra yeni təsis olunmuş birinci müavini vəzifəsinə seçilmişdir. Müstəqil Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı (2001 ildən), sonra isə bu nüfuzlu Beynəlxalq təşkilatın vitse-prezidenti və büro üzvü seçilmişdir. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun faciəli nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin bu mötəbər beynəlxalq təşkilat vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidməti var.

1991-1994-cü illərdə özəl biznes sahəsində çalışmışdır. Bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.

1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, birinci vitse-prezidenti olmuşdur. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdir.

Suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur.

1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam vermişdir.

1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir.

1999-cü ildə Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilmişdir.

2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur.

2003-cü ilin yanvarında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir.

2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına və Avropa ideallarına sədaqətinə görə AŞPA-nın fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilmişdir.

2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir.

2003-cü il 15 oktyabrda Azərbaycan Republikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76%-dən çoxu İlham Əliyevin lehinə səs vermişdir. 2003-cü iloktyabrın 31-də vəzifəsinin icrasına başlamışdır.

2008-ci ildə yenidən prezident seçilmişdir. 2013-cü ildə üçüncü müddətə prezident seçilmiş və hazırda prezident vəzifəsini icra edir.

Rus, ingilis, fransız və türk dillərini bilir.

Ailəlidir. Üç övladı, üç nəvəsi vardır.

**Zərifə Əliyeva**



Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. Əziz Əliyevin qızı, Heydər Əliyevin həyat yoldaşıdır. Azərbaycan Dövlət Tibb İnstitutunu (indiki Tibb Universiteti) bitirmişdir (1947). Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının

dosenti, professor, görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır. Z.Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Z.Əliyeva yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmoloqu" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb Elmlər Akademiyasının M. İ. Averbax adına mükafatına layiq görülmüşdür (1981). 1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur. Məzarı üstündə tuncdan heykəli ucaldılmışdır. Bakıda Göz xəstəlikləri İnstitutu, Naxçıvan şəhər poliklinikası və Naxçıvanda küçə Zərifə Əliyevanın adını daşıyır. Bakının Binəqədi rayonu ərazisində adına istirahət parkı salınmışdır.

**Əcəmi Naxçıvani**



Əcəmi Əbubəkr oğlu Naxçıvani (12-ci əsrin 20-ci illəri – 12-ci əsrin sonu) - memar. Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. Əcəmi orta əsr Azərbaycan memarlığına yeni istiqamət vermiş, özünün sənət dühası ilə Səlcuqilər dövrü memarlığının bir qədər ağır və sərt üslubuna böyük incəlik və dinamiklik gətirmiş, Yaxın Şərq memarlığına güclü təsir göstərmişdir. Əcəminin adı Azərbaycan ictimai fikrində intibah, humanizm ideyalarının yayıldığı 12-ci əsrin görkəmli simaları arasında şərəfli yer tutur. Eyni zamanda, dövrünün memarları içərisində Əcəmi daha çox yaratdıqlarının elmə bəlli olması ilə seçilir. Yaratdığı abidələrin üzərindəki kitabələrdə özünü "Əbubəkr oğlu Əcəmi, Naxçıvanlı memar" adlandıran sənətkarın təsviri sənəti, mühəndisliyi memarlıqla sintetik şəkildə

birləşdirdiyi aydın görünür. Şərqin böyük dühaları ona "Şeyxül-mühəndis" (mühəndislərin başçısı) fəxri adı vermişdilər.

Əcəminin yaradıcılığı 12-ci əsrdə qüdrətli Azərbaycan Atabəyləri dövlətinin paytaxtı Naxçıvanla bağlı olmuşdur. Əcəminin yaratdığı ilk məlum abidə Yusif ibn Küseyir türbəsidir. Naxçıvan şəhərinin mərkəzində yerləşən və el arasında "Atababa günbəzi" adı ilə tanınan bu türbə 1162-ci ildə tikilmişdir. Abidənin giriş qapısından soldakı kitabədə memarın adı yazılmışdır: "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməli". Təkcə Azərbaycanda deyil, islam aləmində ən hündür və incə kompozisiyalı türbələrindən sayılan Mömünə xatun türbəsini Əcəmi 1186-cı ildə Naxçıvanın qərb hissəsində ucaltmışdır. El yaddaşında "Atabəy günbəzi" adı ilə qalan bu türbə Atabəy Şəmsəddin Eldənizin arvadı, Məhəmməd Cahan Pəhləvanın anası Mömünə xatunun şərəfinə tikilmişdir. Türbə özünün iri ölçüləri, monumental biçimləri, dinamik silueti ilə böyük bir memarlıq kompleksinin dominantı idi. Memarlıq prinsiplərinin təkmilləşməsi və mürəkkəbləşməsi əsasında yaradılmış onguşəli Mömünə xatun türbəsi monumental abidədir.

Əcəmi yaradıcılığı Azərbaycan və Yaxın Şərq ölkələri memarlığına böyük təsir göstərmişdir - Marağadakı Göy günbəz (1196), Naxçıvan yaxınlığındakı Gülüstan türbəsi (13 əsr), Qarabağlar türbəsi (12-14 əsrlər), Bərdə və Səlma türbələri (14 əsr), türk memarı Sinanın (16 əsr) İstanbulda tikdiyi türbələrdə Əcəmi ənənələri yaşayır. 1926-ci ildə Gəncədə Nizaminin məzarı üstündə abidə qoyularkən Əcəmi irsindən istifadə edilmiş, Nizami türbəsi Əcəmi dühası ruhunda tikilmişdir.

H. İbrahimovun "Əsrin onda biri" romanı, Kəmalənin "O bizim dağların oğlu idi" pyesi Əcəmiyə həsr edilmişdir. 1976-cı ildə anadan olmasının 850 illiyi geniş qeyd olunmuşdur. Naxçıvan şəhərində Əcəmi Naxçıvanskinin büstü ucaldılmışdır.

## Nəcməddin Naxçıvani

Naxçıvani Nəcməddin ibn Əhməd ibn Əbubəkr ibn Məhəmməd (?, Naxçıvan şəhəri. -1253-cü ildən sonra, Suriya, Hələb) - müsəlman Şərqində tanınmış Azərbaycan filosofu. Naxçıvanda təhsİl almış, elmin bütün sahələrinimükəmməl öyrənmişdir. Ömrünün müəyyən hissəsini Azərbaycanda yaşamış, Marağa rəsədxanasında çalışmışdır. Ərəb alimi İbn əl-İbri (Əbü-1 Fərəc; 1226-1286) "Müxtəsər tarix əl-düvəl" ("Dövlətlərin müxtəsər tarixi") əsərində Naxçıvanihaqqında yazırdı: "O, böyük fəzilət sahibi, dəqiq elmlərin dərin bilicisi

idi. Öz vətənində fəlsəfə ilə məşğul olurdu". Naxçıvani doğma yurdunu, çox güman ki, siyasi şərait üzündən tərk etməli olmuşdur. Bir müddət Əmir Cəlaləddin Qaratayın vəziri işləyən filosof yuxarı dairələrdəki haqsızlığın, ədalətsizliyin bilavasitə şahidi olduqda ətrafında baş verən ictimai-sİyasi hadisələrə biganə qala bilməmiş, etiraz əlaməti olaraq saray həyatını tərk edərək Hələbə getmiş, ömrünün axırlarında guşənişin həyat keçirmişdir. İbn əl-ibri yazır: "O, ölkələri səyahətə çıxdı, xeyli gəzib dolaşdı,axırda Ruma gəldi, böyük mənsəblər tutdu".

Naxçıvaninin elmi və fəlsəfİ yaradıcılığı orta əsr müəllifləri tərəfindən yüksək qiymətləndirilmişdir. Ərəb müəllifi İbn Bibi onu "bütün elmlərdə və fənlərdə dalğalı dənizə və yağışlı buluda" bənzətmiş, dini və dünyəvi elmləriözündə topladığını qeyd etmişdir. Naxçıvani peripatetik fəlsəfənin problemlərini dərindən araşdırmış, məntiqə və təbiətşünaslığa böyük əhəmiyyət vermişdir. Ərəbdilli peripatetizmİn, onun görkəmli nümayəndəsi İbn Sinanın əsərlərinin fəal təbliğatçılarından sayılmasına baxmayaraq, bir sıra doktrinaları tənqidi planda nəzərdən keçirmişdir. Naxçıvani İbn Sinanın "Tibb qanunu" və "İşarələr və qeydlər" kitablarına şərhlər yazmışdır. İnsan öləndən sonra nəfsin yaşamasına inanan Naxçıvani Şərq peripatetiklərinin əksinə olaraq, mənbələrdə deyildiyİ kimi, "tənəsüx təliminə güclü meyl göstərirdi". O, İbn Sinanın əsərlərini ortodoksal islam mövqeyindən təftiş etməmiş, əksinə, hakim ideologiyanın prinsiplərinə heç də uyğun gəlməyən bir təlimi - tənəsüxü qəbul etməklə peripatetiklərə tənqidi yanaşmışdır. Əsərlərinin əlyazma nüsxələri dünyanın müxtəlif arxivlərində, o cümlədən "Tibb qanunu" kİtabının şərhi Paris Milli kitabxanasında, "İşarələr və qeydlər" kitabına şərh Türkiyənin Ayasofiya, Nur Osmaniyyə və Köprülü kitabxanalarında, "Məntiqin məğzi və fəlsəfənin xülasəsi" risaləsi Nəcəf (İraq) şəhərindəki Əl-Məşhəd əl-Əlvin əlyazmalar fondunda saxlanılır.

**Məhəmməd ibn-Hinduşah Naxçıvani**

Naxçıvani Məhəmməd ibn Hinduşah ibn Səncər ibn Abdullah əl-Girani ən-Naxçıvani (təqribən 1293, Naxçıvan - 1376) - alim və dövlət xadimi, qazı əl-qüzzat (baş qazı). Tanınmış elm xadimləri nəslinə mənsub olmuş, atası Hinduşah Naxçıvaninin yolunu davam etdirmişdir. Yaxşı təhsil almış, ərəb, fars, türk dillərini mükəmməl bilmiş, dövrünün bir sıra elmlərinə yiyələnmişdir. 14-cü əsrin 20-ci illərində Təbrizə gəlmiş və Hülakular sarayında maliyyə

sahəsində çalışmışdır. F. Rəşidəddinin oğlu, sonralar dövlətin baş vəziri olmuş Qiyasəddin Məhəmməd Rəşidinin yanında münşi və nədim olmuş, qabiliyyətinə görə "Şəmsi münşi ən-Naxçıvani" ləqəbini almışdır. Qiyasəddin Məhəmməd Rəşidinin vasitəçiliyi ilə Elxani hökmdarı Sultan Əbu Səid Bahadır xanla (1316-1335) tanış olmuş, onun göstərişinə əsasən dövlət quruluşu və idarə sisteminə həsr olunmuş xüsusi əsər yazmağa başlamış, lakin onu uzun müddətdən sonra (1366) başa çatdıra bilmişdir. Həyatının ikinci yarısı Azərbaycanda Çobanilərin ağalığı və Cəlarilərin hakimiyyəti dövrlərinə təsadüf edir. Bu illərdə din sahəsində də məşhurlaşmış və Cəlarilər dövründə bir müddət dövlətin baş qazısı (qazı əl-qüzzat) vəzifəsində çalışmışdır. Naxçıvaninin ictimai-siyasi baxışları Nizam əl-mülk, Rəşidəddin və onun oğlu Qiyasəddinin, həmçinin Vəssaf, Həmdullah Qəzvini və başqa mütəfəkkirlərin baxışları ilə demək olar ki, eyniyyət təşkil edir. O da sələfləri kimi, dövlət quruluşunda monarxiya sistemi və mərkəzləşdirilmiş güclü hakimiyyət tərəfdarı olmuşdur. Elmi irsindən dövrümüzədək 2 əsər çatmışdır. 1328-ci ildə başa çatdırdığı "Sihah əl-fors" əsəri fars dilində işlədilən 2300 sözün, ibarənin izahına həsr olunmuş lüğətdir. Əsər müəllifin müqəddiməsindən (dibaçə), 25 bab və 431 fəsildən ibarətdir. Lüğətin tərtibində sələflərinin təcrübəsindən istifadə edən müəllif fars sözlərinin izahı zamanı bir çox dillərdən, o cümlədən Azərbaycan və türk dili materiallarından faydalanmışdır. Lüğətdə Azərbaycan əhalisinin həyat tərzini əks etdirən etnoqrafik materiallar vardır. Burada bir çox söz ustalarının, eləcə də atası Hinduşah Naxçıvaninin şerlərindən parçalar verilir. Müəllif yeri gəldikcə fars dilinin leksikologiyası və fonetikasından bəhs edir. Əsər sonrakı dövrlərdə lüğət tərtibçiləri üçün mənbə rolunu oynamışdır. 4 əlyazma nüsxəsi məlumdur. 1962-ci ildə Tehranda Ə. Taəti tərəfindən nəşr olunmuşdur.

Cəlairi hökmdarı Şeyx Üveysə (1356-1374) həsr olunmuş və 1366-cı ildə tamamlanmış 2-ci əsəri iki hissədən ibarət "Dəstur əl-katib fi təyin əl-məratib" ("Dərəcələrin təyin edilməsində katiblər üçün göstəriş") əsəridir. Burada rəsmi dövlət sənədlərinin nümunələri verilmişdir. Lakin sənədlər, sadəcə, nümunə xarakteri daşımayıb, dövrün ictimai-iqtisadi, siyasi, mədəni və dini həyatı barədə çoxlu real faktlarını əks etdirir. Əsərdə torpaq mülkiyyəti formaları, torpaqdan istifadəqaydaları, vergi və mükəlləfiyyətlər, hərbi quruculuq, hərbi və dini məhkəmələr, şəhər həyatı, sənətkarlıq və ticarət, oturaq və köçəri təsərrüfatla bağlı məsələlər, xalq kütlələrinin acınacaqlı vəziyyəti və mübarizəsi, feodal iyerarxiyasına uyğun bütün vəzifələrin şərhi, bir çox elm adamları, dövlət xadimləri, sənətkarlar və s. barədə məlumat verilir. Müəllif dövrün idarə sistemində mövcud olmuş vəzifələrə təyinatları şərh edərkən nümunə kimi faktik sənədləri misal

göstərmişdir. Burada real tarixişəxsiyyətlər və yer adları xatırlanır. Əsərdə 100-dən artıq tarixi termin, istilah verilir və onların bir çoxu müəllif tərəfindən açıqlanır. Əsər Nizam əl-mülkün "Siyasətnamə"si, Rəşidəddinin "Cami ət-təvarix"i və s. əsərlərlə bir səviyyədə tutulur. Dünya kitabxanalarında 6 əlyazma nüsxəsi mövcuddur. Elmi-tənqidi mətni (bütün mövcud əlyazma nüsxələri əsasında) akademik Ə. Ə. Əlizadə tərəfindən hazırlanmış və 1964-1976-cı illərdə Moskvada 2 cilddə (3 kitabda) çap olunmuşdur.

## Nəsrəddin Tusi



Nəsirəddin Tusi Məhəmməd ibn Məhəmməd ibn Həsən (17.2.1201, Tus - 25.6. 1274, Bağdad) - ensiklopediyaçı alim, filosof, ictimai-siyasi xadim. Tusi onun nisbəsi, Nəsirəddin (dinin tərəfdarı) ləqəbidir. Məhəmməd adının əvəzedicisi Əbu Abdulla, yaxud Əbu Cəfər künyələri ilə də tanınmışdır. Ona Xacə (Cənab), habelə həmin mənada Mövla demişlər. İlk təhsilini atasından və dayısından almış, sonra Xorasanda humanitar və dəqiq elmlərin müxtəlif sahələrini dərindən öyrənmişdir. Nəsirəddin Tusiyə 30.6.1222-ci ildə Müinəddin Salim Misri tərəfindən hədis söyləmək icazənaməsi verilmişdir.

Nəsirəddin Tusi ismaililərin başçılarından olan Kuhistan hakimi Nasirəddin Möhtəşəmin dəvəti ilə İsfahana getmiş, rəğbətlə qarşılanmışdır. Lakin aralarında baş verən müəyyən narazılıq nəticəsində Nəsirəddin Tusiyə inam azalmış və o, Ələmut qalasında, bir növ, həbsdə yaşamışdır. Hülaku xan 1256-cı ildə ismaililərin hakimiyyətinə son qoyarkən Nəsirəddin Tusini azad edib, özünə məsləhətçi götürmüşdür. Bağdadın fəthində iştirak edən alim müdrik tədbirləri ilə tanınmış, insanlara, xüsusən ziyalılara böyük qayğı göstərmiş, onları ölümdən qurtara bilmişdir. Marağa və Təbrizi tərk etmiş 500-ə qədər ailə onun sayəsində vətənə qayıtmışdır.

Nəsirəddin Tusinin dünya elm və mədəniyyəti tarixində mühüm xidmətlərindən biri 1259-cu ildə Marağa Rəsədxanasını təşkil etməsidir. O, ayrı-ayrı millətlərin müxtəlif əqidəli 100-dən çox nümayəndəsini buraya toplamış, onların işləməsi üçün lazımi şərait yaratmışdır. Rəsədxana nəzdində fəaliyyət göstərən mədrəsədə o dövrün bütün bilik sahələri, elmi, dini, fəlsəfi və ictimai-siyasi

təlimləri öyrənilirdi. Mədrəsənin 400 min cilddən çox kitabı olan zəngin kitabxanası var idi.Nəsirəddin Tusi Bağdadda səfərdə olarkən vəfat etmiş, öz vəsiyyətinə görə onun yaxınlığındakı müqəddəs Kazımeyn şəhərində dəfn edilmişdir. Maraqlıdır ki, onun dəfn olunduğu sərdabə Nəsirəddin Tusi anadan olan vaxt - hicri tarixi ilə 75 il, 7 ay, 7 gün əvvəl, xəlifə Nasir li-Dinillah üçün hazırlanmış, lakin müəyyən səbəblərə görə boş saxlanılmışdı.

Nəsirəddin Tusinin Sədrəddin Əli, Əsiləddin Həsən və Fəxrəddin Əhməd adlı üç oğlu da elm yolunu tutmuş, eyni zamanda dövlət işlərində çalışmışlar. Əvhədi Marağayi (1274-1338) "Dəhnamə" məsnəvisini (1306) Nəsirəddin Tusinin nəvəsi Xacə Ziyaəddin Yusif ibn Əsiləddin Həsənə ithaf etmişdir. Nəsirəddin Tusi nəslindən olanlar sonralar Naxçıvan ərazisində yaşamış, elm, ədəbiyyat və incəsənət sahəsində tanınmışlar. Nəsirəddin Tusi nəslinin Ordubad mahalında yaşaması və buna görə I Şah Abbasın (1587-1629) oranı bütün vergilərdən azad etməsi haqqında fərmanı 17-ci əsrdə Ordubadda tikilmiş böyük cümə məscidinin qapısı üstündəki daş kitabədə həkk olunmuşdur.

**Məhəmməd ibn-Hinduşah Naxçıvani** Naxçıvani Məhəmməd ibn Hinduşah ibn Səncər ibn Abdullah əl-Girani ən-Naxçıvani (təqribən 1293, Naxçıvan - 1376) - alim və dövlət xadimi, qazı əl-qüzzat (baş qazı). Tanınmış elm xadimləri nəslinə mənsub olmuş, atası Hinduşah Naxçıvaninin yolunu davam etdirmişdir. Yaxşı təhsil almış, ərəb, fars, türk dillərini mükəmməl bilmiş, dövrünün bir sıra elmlərinə yiyələnmişdir. 14-cü əsrin 20-ci illərində Təbrizə gəlmiş və Hülakular sarayında maliyyə sahəsində çalışmışdır. F. Rəşidəddinin oğlu, sonralar dövlətin baş vəziri olmuş Qiyasəddin Məhəmməd Rəşidinin yanında münşi və nədim olmuş, qabiliyyətinə görə "Şəmsi münşi ən-Naxçıvani" ləqəbini almışdır. Qiyasəddin Məhəmməd Rəşidinin vasitəçiliyi ilə Elxani hökmdarı Sultan Əbu Səid Bahadır xanla (1316-1335) tanış olmuş, onun göstərişinə əsasən dövlət quruluşu və idarə sisteminə həsr olunmuş xüsusi əsər yazmağa başlamış, lakin onu uzun müddətdən sonra (1366) başa çatdıra bilmişdir. Həyatının ikinci yarısı Azərbaycanda Çobanilərin ağalığı və Cəlarilərin hakimiyyəti dövrlərinə təsadüf edir. Bu illərdə din sahəsində də məşhurlaşmış və Cəlarilər dövründə bir müddət dövlətin baş qazısı (qazı əl-qüzzat) vəzifəsində çalışmışdır. Naxçıvaninin ictimai-siyasi baxışları Nizam əl-mülk, Rəşidəddin və onun oğlu Qiyasəddinin, həmçinin Vəssaf, Həmdullah Qəzvini və başqa mütəfəkkirlərin baxışları ilə demək olar ki,eyniyyət təşkil edir. O da sələfləri kimi, dövlət quruluşunda monarxiya sistemi və mərkəzləşdirilmiş güclü hakimiyyət tərəfdarı olmuşdur. Elmi irsindən dövrümüzədək 2 əsər çatmışdır. 1328-ci ildə başa çatdırdığı "Sihah əl-

fors" əsəri fars dilində işlədilən 2300 sözün, ibarənin izahına həsr olunmuş lüğətdir. Əsər müəllifin müqəddiməsindən (dibaçə), 25 bab və 431 fəsildən ibarətdir. Lüğətin tərtibində sələflərinin təcrübəsindən istifadə edən müəllif fars sözlərinin izahı zamanı bir çox dillərdən, o cümlədən Azərbaycan və türk dili materiallarından faydalanmışdır. Lüğətdə Azərbaycan əhalisinin həyat tərzini əks etdirən etnoqrafik materiallar vardır. Burada bir çox söz ustalarının, eləcə də atası Hinduşah Naxçıvaninin şerlərindən parçalar verilir. Müəllif yeri gəldikcə fars dilinin leksikologiyası və fonetikasından bəhs edir. Əsər sonrakı dövrlərdə lüğət tərtibçiləri üçün mənbə rolunu oynamışdır. 4 əlyazma nüsxəsi məlumdur.
1962-ci ildə Tehranda Ə. Taəti tərəfindən nəşr olunmuşdu.
Cəlairi hökmdarı Şeyx Üveysə (1356-1374) həsr olunmuş və 1366-cı ildə tamamlanmış 2-ci əsəri iki hissədən ibarət "Dəstur əl-katib fi təyin əl-məratib" ("Dərəcələrin təyin edilməsində katiblər üçün göstəriş") əsəridir. Burada rəsmi dövlət sənədlərinin nümunələri verilmişdir. Lakin sənədlər, sadəcə, nümunə xarakteri daşımayıb, dövrün ictimai-iqtisadi, siyasi, mədəni və dini həyatı barədə çoxlu real faktlarını əks etdirir. Əsərdə torpaq mülkiyyəti formaları, torpaqdan istifadə qaydaları, vergi və mükəlləfiyyətlər, hərbi quruculuq, hərbi və dini məhkəmələr, şəhər həyatı, sənətkarlıq və ticarət, oturaq və köçəri təsərrüfatla bağlı məsələlər, xalq kütlələrinin acınacaqlı vəziyyəti və mübarizəsi, feodal iyerarxiyasına uyğun bütün vəzifələrin şərhi, bir çox elm adamları, dövlət xadimləri, sənətkarlar və s. barədə məlumat verilir. Müəllif dövrün idarə sistemində mövcud olmuş vəzifələrə təyinatları şərh edərkən nümunə kimi faktik sənədləri misal göstərmişdir. Burada real tarixişəxsiyyətlər və yer adları xatırlanır. Əsərdə 100-dən artıq tarixi termin, istilah verilir və onların bir çoxu müəllif tərəfindən açıqlanır. Əsər Nizam əl-mülkün "Siyasətnamə"si, Rəşidəddinin "Cami ət-təvarix"i və s. əsərlərlə bir səviyyədə tutulur. Dünya kitabxanalarında 6 əlyazma nüsxəsi mövcuddur. Elmi-tənqidi mətni (bütün mövcud əlyazma nüsxələri əsasında) akademik Ə. Ə. Əlizadə tərəfindən hazırlanmış və 1964-1976-cı illərdə Moskvada 2 cilddə (3 kitabda) çap olunmuşdur.

**Fəzlullah Nəimi** Nəimi, Şəhabəddin Fəzlullah Təbrizi Astabadi (təqribən 1339-40-1402-ci illər) - mütəfəkkir, şair. Orta əsrlərdə Yaxın və Orta Şərqdə geniş yayılmış hürufilik təriqətinin əsasını qoymuşdur. Hürufiliyin fəlsəfi əsasını təşkil edən ardıcıl panteizmin başlıca müddəalarını "Cavidani-Səğir", "Məhəbbətnamə", "Ərşnamə" traktatlarında, qismən"Novmnamə" ("Yuxular haqqında") əsərlərində və "Divan"ında şərh etmişdir. Başlıca əsəri "Cavidani-Kəbir"dir ("Cavidannamə")-Hürufilər allahın Fəzlullahda təcəssüm etdiyinə, onun allahın timsalı kimi yerdəki ədalətsizliyi aradan qaldıracağına

inanırdılar. Mənbələrdəki məlumatlara görə hürufiliyi təbliğ etdiyi və hakim dairələrə qarşı kəskinsiyasi mübarizə apardığı üçün Teymurilər Nəimini Əlincə qalasına qədər təqib etmiş, əmir Teymurun əmri ilə onun oğlu Miranşah tərəfindən tutulmuş və Əlincə qalasında edam edilmişdir.

**Həsən Əliyev**



Əliyev Həsən Əlirza oğlu (15.12.1907. Sisyan rayonunun Comərdli kəndi-02.02.1993, Bakı, Fəxri Xiyabanda dəfn edilmişdir) - torpaqşünas, ümumi əkinçilik və təbiəti mühafizə sahəsində alim, ictimai-siyasi xadim. Kənd təsərrüfatı elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki (1952). Azərbaycan Respublikası əməkdar elm xadimi (1974). Azərbaycan Dövlət mükafatı laureatı (1978). Böyük Vətən müharibəsinin (1941-1945) iştirakçısıdır. Azərbaycan Milli Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitunun elmi işlər üzrə- direktor müavini (1944-1949), eyni zamanda Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki Azərbaycan Pedaqoji Universiteti) baş müəllim (1945-1949), Azərbaycan Milli Elmlər Akademiyası Botanika İnstitunun direktoru (1949-1952), Azərbaycan Kənd Təsərrüfatı nazirinin birinci müavini və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitənin katibi (1952), Azərbaycan Milli Elmlər Akademiyası akademik-katibi (1952-57), Azərbaycan Milli Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitunda laboratoriya müdiri (1957-1967), Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya İnstitunun direktoru (1968-1993) vəzifələrində işləmişdir. Əsas elmi fəaliyyəti torpaqşünaslığın nəzəriyyəsi, ekologiya,botanika, bitkiçilik, təbii ehtiyatların və təbii şəraitin qorunub daha səmərəli istifadə olunması problemlərini,ümumiyyətlə, təbiətşünaslığın müxtəlif sahələrini əhatə edir. O, Şərqi Zaqafqaziya torpaqlarının əmələ gəlməsinin və coğrafiyasının tədqiqinə, Azərbaycanda Beynəlxalq Bioloji Proqramın işlənib hazırlanmasına böyük əmək sərf etmişdir. Təbii ehtiyatların tədqiqi, təbiətdən istifadənin elmi cəhətdən əsaslandırılması və onların mühafizəsinin təşkili Əliyevin elmi və ictimai fəaliyyətinin əsas istiqamətini təşkil etmişdir. Azərbaycan təbiətinin, torpağının və suyununmühafızəsi sahəsində onun xidmətləri əvəzsizdir. O, kütlələrin ekoloji tərbiyəsinə, təbiətin mühafizəsi haqqında biliklərin təbliğinə böyük əhəmiyyət verirdi. Əliyevin "Həyəcan təbili" əsəri (Bakı, 1976, 1982) təbiətin və ətraf mühitin qorunması üçün insanlara ağrılı, hərarətli müraciət, çağırışdır. Əliyev coğrafiya elmləri üzrə bir sıra problem şuralarının sədri və üzvü olmuşdur. Yüksək ixtisaslı kadrlar hazırlanmasında böyük xidməti var.

Azərbaycan RespublikasıTəbiəti Mühafizə Komitəsinin yaradıcısı və cəmiyyətinin sədri və Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti (1975-1990), "Azərbaycan təbiəti" məcmuəsinin baş redaktoru (1975-ci ildən) idi. Əliyev Yunanıstan (1958), Polşa (1960), ABŞ (1964, 1977), Rumıniya (1966), İsveçrə (1966), Avstraliya (1968), Kanada (1978), Yaponiya (1980), Almaniya (1981) və s. ölkələrdə keçirilmiş beynəlxalq konqreslərdə məruzələr etmişdir. Azərbaycan SSR Ali Sovetinin (10-11-ci çağırış) deputatı olmuşdur. Lenin ordenı, Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz, Vətən müharibəsi, Şərəf nişanı ordenləri, SSRİ Elmlər Akademiyasının N. İ. Vavilov adına Qızıl medalı ilə təltif edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutu Əliyevin adınadır. Dünya Universitetinin elmi və mədəniyyət üzrə doktoru (ABŞ), İngiltərə Kraliça Biblioqraflar Cəmiyyətinin həqiqi üzvü olmuşdur.

**Həsən Abdullayev**



Abdullayev Həsən Məmmədbağır oğlu (20-08.1918-ci il, Culfa rayonunun Yaycı kəndi -01.09.1993-cü il Bakı, Fəxri Xiyabanda dəfn olunmuşdur) - fizik. Fizika-riyaziyyat elmləri doktoru. SSRİ Elmlər Akademiyasının müxbir üzvü (1970). Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. (1967; müxbir üzvü 1955). Azərbaycan Respublikası əməkdar elm xadimi (1974). Azərbaycan Dövlət mükafatı laureatı (1972). Azərbaycan Dövlət Pedaqoji İnstitunun (indiki Azərbaycan Pedaqoji Universiteti) fizika-riyaziyyat fakültəsini (1941) və Azərbaycan Milli Elmlər Akademiyası Fizika-Riyaziyyat İnstitunun aspiranturasını (1948) bitirmişdir. Azərbaycan Milli Elmlər Akademiyası Fizika-Riyaziyyat (1950, 1957-58) və Fizika (1959-1968) institutlarının direktoru, Azərbaycan Milli Elmlər Akademiyası fizika-riyaziyyat və texnika bölməsinin akademik katibi (1968-1970) və Azərbaycan Milli Elmlər Akademiyası prezidenti (1970-1983) olmuşdur. Abdullayev selenin, tellurun, onların mürəkkəb birləşmələrinin və bunların əsasında hazırlanan yarımkeçirici cihazların fizikası, selenin bioloji proseslərdə rolunun tədqiqi sahəsində əsaslı elmi təcrübələr qazanmışdır. Abdullayevin rəhbərliyi ilə bir sıra cihazlar yeni fiziki prinsipdə işləyən uzunmüddətli elektrik yaddaşlı cihazlar yaradılmışdır. Termoelektrik çeviricilər üçün Abdullayevin aldığı yarımkeçirici materiala ABŞ və Fransanın patentləri verilmişdir. O, Azərbaycanda yarımkeçiricilər fizikası üzrə elmi məktəb yaratmışdır. Abdullayevin təşəbbüsü ilə 1956-cı ildə Bakı Dövlət Universitetində yarımkeçiricilər fizikası kafedrası təşkil edilmişdir. Abdullayev

SSRİ Elmlər Akademiyası Rəyasət Heyəti yanında "Yarımkeçiricilər fizikası və kimyası" elmi şurasının üzvü, respublika "Fizika problemləri" elmi şurasının və "Bilik" Cəmiyyəti İdarə Heyətinin sədri, elm və texnika sahəsində Azərbaycan Respublikası Dövlət Mükafatları Komitəsinin sədri idi. 11 monoqrafiyanın, 300-dən çox elmi əsərin, 40 ixtiranın müəllifidir. ABŞ (1961, 1972). Fransa (1957, 1971, 1976), Böyük Britaniya (1962). Yaponiya (1966), İsveç (1971) və s. ölkələrdə keçirilən beynəlxalq elmi məclislərdə məruzələr etmiş, Türkiyədə (1974) yarımkeçiricilər fizikasına dair mühazirələr oxumuşdur. Abdullayevin "Elektron yarımkeçiriciləri və onların tətbiqi" (1952) kitabı yarımkeçiricilər fizikası sahəsində Azərbaycan dilində nəşr olunan ilk əsərdir. SSRİ Ali Sovetinin (8-11-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni, SSRİ Elmlər Akademiyasının S.İ.Vavİlov adına qızıl medalı ilə təltif edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstituna onun adı verilmişdir. İnstitutun binasının önündə onun barelyefi olan xatirə lövhəsi vurulmuşdur, Naxçıvanda adına küçə və məktəb var.

**Heydərqulu xan Kəngərli** Heydərqulu xan Kəngərli ( ?-1763/64)- Naxçıvan Xanı [1763-1764]. Nadir şah Əfşar əyanlarının sui-qəsdi nəticəsində öldürüldükdən (1747) sonra kəngərli tayfa başçısı Heydərqulu xan Kəngərli şahın naibi Ağahəsəni hakimiyyətdən uzaqlaşdırıb, özünü Naxçıvanın müstəqil xanı elan etdi. O, xanlığı möhkəmlətmək, xəzinənin gəlirini artıran ticarəti, həmçinin sənətkarlığı inkişaf etdirmək məqsədilə bir sıra tədbirlər həyata keçirdi: xanlıqda və şəhərlərdə rabitə vasitələrini qaydaya saldı, köhnə körpülərin təmir olunması, yenilərinin inşası haqqında əmr verdi. Naxçıvan xanlığının hərbi gücü az olduğundan Heydərqulu xan Kəngərli daha qüdrətli xanlıqlara arxalanmağa çalışırdı. Bu məqsədlə qarabağlı Pənahəli xanla müttəfiq oldu, onunla və gürcü çarları ilə birlikdə 1752-ci ildə Şəki xanı Hacı Çələbiyə qarşı yürüşdə iştirak etdi. Uğursuz qurtaran bu yürüşdən sonra Heydərqulu xan Kəngərli xanlığın iqtisadiyyatını tənzimləməklə məşğul oldu. Ölümündən sonra yerinə Haci xan Kəngərli keçdi.

**İsmayıl Naxçıvanski**



Naxçıvanski İsmayıl xan Ehsan xan oğlu (05.01.1819, Naxçıvan-1918, Naxçıvan) - hərbi xadim, general-leytenant. Sonuncu Naxçıvan xanı Ehsan xan Kəngərlinin oğlu, Kalbalı xan Naxçıvanskinin qardaşıdır. Tiflis hərbi gimnaziyasını bitirmiş (1839), bir il sonra poruçik rütbəsi almışdır. Uzun müddət Qafqaz Əlahiddə Ordusunda xidmət edən Naxçıvanskiyə

1844-cü ildə ştabs-kapitan, 1860-cı ildə isə alay komandiri kimi polkovnik rütbəsi verilmişdir. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsində göstərdiyi sərkərdəlik fəaliyyətinə görə isə o, süvari qoşunu general-mayoru rütbəsinə layiq görülmüşdür. Ordudan general-leytenant rütbəsi ilə tərxis olunan Naxçıvanski vətənində abadlıq işləri ilə məşğul olmuş, Naxçıvana su çəkdirmiş, kəhrizlər qazdırmış və tarixi abidə kimi bugünədək qorunan künbəzli hamam tikdirmişdir. Xurşud Banu Natəvanın qızı Xanbikə xanımı oğlu Əman xana alıb, Qarabağ xanlığı ilə qohum olmuşdur. Birinci və üçüncü dərəcəli "Müqəddəs Stanislav", üçüncü və dördüncü dərəcəli "Müqəddəs Vladimir", dördüncü dərəcəli "Müqəddəs Georgi" ordenləri ilə təltif olunmuşdur. Rus yazıçısı Valentin Pikul "Bəyazid" tarixi romanında Naxçıvanskinin obrazına müraciət etmiş, onun igidliyindən, əla sərkərdəlik bacarığından söz açmışdır. Naxçıvanskinin adı Sovet Hərbi Ensiklopediyasının birinci cildində də çəkilir, "Bəyazid" şəhəri rus qoşunları tərəfindən mühasirəyə alınarkən gedənağır döyüşlərə polkovnik Naxçıvanskinin rəhbərlik etdiyi göstərilir. Bəzi tədqiqatlarda Naxçıvanski İsmayıl xan onun qardaşı oğlu olan Hüseyn xan Naxçıvanski ilə qarışıq salınmışdır.

**Hüseyn Naxçıvanski**



Naxçıvanski Hüseyn xan Kalbalı xan oğlu (28.06.1863, Naxçıvan - 1919, Petroqrad) -hərbİ xadim. General-leytenant (1915). Kalbalı xan Naxçıvanskinin oğlu, Ehsan xan Kəngərlinin nəvəsidir. On beş yaşında ikən Peterburqdakı Paj korpusu məktəbinə verilmiş, 1881-ci ildə oranı əla qiymətlərlə bitirərək, çarın xüsusi süvari qoşununda xidmət etmişdir. Sonralar Qafqazda və Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmətdə olan Naxçıvaniyə 1903-cü ildə polkovnik rütbəsi verilmişdir. Rusiya-Yaponiya müharibəsində (1904-1905) qafqazlılardan təşkil olunmuş 2-ci Dağıstan süvari alayına komandirlik etmişdir. Tanınmış rus jurnalisti A. Kvitkanın "Zabaykalye kazak zabitinin gündəliyi" əsərində Naxçıvaninin alayının döyüş rəşadətindən də bəhs olunur. 1906-cı ildə leybqvardiya polkunun komandiri olmuş, 1907-ci ildə generel-mayor rütbəsinə layiq görülmüşdür. 1912-ci ildə Naxçıvani 1-ci Əlahiddə süvari briqadasının komandiri idi. Birinci dünya müharibəsində 1-ci və 2-cİ süvari diviziyalarının komandiri olan Naxçıvani alman cəbhəsinin yarılmasında fərqlənmişdir. Rus yazıçısı A. Soljenitsin "14 avqust" romanında yazmışdır: "Peterburq zadəganlarının say-seçmə üzvlərindən ibarət qvardiya süvarilərinə general Hüseyn xan Naxçıvanski komandanlıq edirdi". Birinci dünya müharibəsi cəbhələrində qazandığı qələbələrə və sərkərdəlik məharətinə gorə 1916-cı ildə Naxçıvaniyə tam süvari qoşunu generalı rütbəsi verilmişdİr.

Sonralar Cənubi Qafqaz cəbhəsinin komandanı təyin edilmiş, Fevral İnqilabından (1917) sonra hərbi işdən uzaqlaşmışdır. Müqəddəs Georgi ordeninin dörd dərəcəsi ilə, Müqəddəs Vladimir, ikinci dərəcəli Müqəddəs Aleksandr, Müqəddəs Anna, İgidliyə görə, İranın almazla bəzədilmiş 2-ci və 4-cü dərəcəli Şire-Xurşid, zabitlərə məxsus Rumın ulduzu, Avstriyanın Dəmir xaç, Bolqarıstanın Döyüş xidmətlərinə görə ordenləri, dördüncü dərəcəli, bantlı, üstü yazılı qızıl sİlahla təltİf olunmuşdur. Qəbri Sankt-Peterburqdakı Aleksandr Nevski monastrının qəbiristanlığındadır.

**Cəmşid Naxçıvanski**



Naxçıvanski Cəmşid Cəfərqulu oğlu (10.8.1895, Naxçıvan şəhəri - 26.8.1938) - hərbi xadim, briqada komandiri. Yelizavetqrad (Qərbi Ukrayna) qvardiya məktəbini bitirmişdir (1915). Birinci dünya müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadronun komandiri olmuş, "Brusilov cəbhəsi"nin yarılmasında iştirak etmiş, 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdu. Avstriya-Rumıniya cəbhəsində üç dəfə yaralanan C.Naxçıvanski igid süvari zabiti kimi gümüş silahla mükafatlandırılmış, 2-ci, 3-cü, 4-cü dərəcəli Anna, 2-ci, 3-cü dərəcəli Stanislav ordenləri ilə təltif olunmuşdu. Cənub-Qərb cəbhəsi dağıdıldıqdan sonra ştab-rotmistri C.Naxçıvanski başçılıq etdiyi süvari alayı ilə birgə Azərbaycana qayıtmış, 1918-ci il sentyabrın 15-də türk qoşunları və Azərbaycan Əlahiddə Korpusu ilə birgə Bakını düşmənlərdən təmizləmişdi. Azərbaycanın müstəqilliyi uğrunda C.Naxçıvanski inamla vuruşmuşdur. C.Naxçıvanski 1923 və 1928-ci illərdə Moskvada qısa müddətli Ali Hərbi Akademiya kurslarında oxumuş, Azərbaycana qayıtdıqdan sonra yenidən diviziya komandiri olmuşdur.

Azərbaycan Sovet Sosialist Respublikası və Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası Mərkəzi İcrayyə Komitələrinin üzvü idi. Qırmızı Bayraq, Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz ordenləri ilə təltif edilmişdir. Adına, Bakıda və Naxçıvanda küçə var. Naxçıvanda ev-muzeyi yaradılmışdır.

# Məhəmməd ağa Şaxtaxtinski



Şahtaxtlı, Şahtaxtinski Məhəmməd ağa Məhəmmədtağı Sultan oğlu (1846, Şərur rayonunun Şahtaxtı kəndi. - 12.12.1931, Bakı) - publisist, şərqşünas, dilçi, pedaqoq və ictimai xadim. Beynəlxalq Fonetika Cəmiyyəti (1899), Beynəlxalq "Asiya cəmiyyəti" (1900) və Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin (1903) həqiqi üzvü. Bakı Universitetinin professoru (1920). Naxçıvan şəhər məktəbini və Tiflis klassik kişi gimnaziyasını (1863) qurtardıqdan sonra, Peterburqda müstəqil yolla alman dilini öyrənmişdir. Leypsiq Universitetitinin fəlsəfə, tarix və hüquq fakültəsini bitirmişdir (1869). 1873-1875 illərdə Parisdə Şərq dilləri məktəbində mühazirələr dinləmiş, fransız dilini öyrənmişdir. Azərbaycan, rus, alman, fransız, ingilis, ərəb, türk, fars dillərində ədəbi və elmi əsərlər yazmışdır.

Elmi fəaliyyətə Almaniyada Şərq tarixinə dair tədqiqatlarla başlamışdır. 70-ci illərdə dərc etdirdiyi ilk məqalələrində liberal xalqçılığın təsiri duyulur. Şahtaxtinski əlifba islahatı sahəsində Mirzə Fətəli Axundovun ardıcıllarındandır. 1879-cu ildə Şərqdə əlifba islahatı tarixində ilk kitab - "Təkmilləşmiş müsəlman əlifbeyi"ni Tiflisdə nəşr etdirmişdir. Bir müddət "Moskovskiye vedomosti" qəzetinin əməkdaşı və İstanbulda xüsusi müxbiri işləmişdir. 1891-1893-cü illərdə Şahtaxtinski "Kaspi" qəzetinin müvəqqəti redaktoru təyin edilmişdi. 1898-cu ildə Azərbaycan dilində "Tiflis" adlı qəzet çıxarmağa çalışmış, lakin çar senzurası buna icazə vermədiyi üçün Şahtaxtinski yenidən Avropaya getmiş, 1902-ci ilədək Parisdə yaşamış, Fransa kollecində və Ali Təcrübi Təhsil Məktəbində Şərq dillərindən dərs demişdir. Bu dövrdə fransız dilində nəşr etdirdiyi əsərlər Qərbi Avropa və Amerika mətbuatında müzakirə və mübahisələrə səbəb olmuşdu. Şahtaxtinski Sorbonna Universitetində professor P. Passinin rəhbərliyi ilə fonetika sahəsində tədqiqat aparmış, Fransa Maarif Nazirliyinin fəxri diplomunu (1901) almışdır.

1902-ci ildə Şahtaxtinski Tiflisdə xüsusi mətbəə açmış (sonralar "Qeyrət" adlanmışdır), 1903-ci ilin martında ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzetinin nəşrinə başlamışdır. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi xidməti olmuşdur. Onun səhifələrində dünyəvi

elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. "Şərqi-Rus" qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Məməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Ə.Nəzmi kimi açıqfikirli ədib və mühərrirləri öz ətrafında birləşdirmişdi. Bu yaradıcı heyət Azərbaycanda mətbuatın inkişafının yeni mərhələsinin ("Molla Nəsrəddin") başlanmasına zəmin yaratdı. 1907-ci ildə İrəvan quberniyasından II Dövlət Dumasına deputat seçilənŞahtaxtinski Duma bağlandıqdan sonra "Rossiya" (Peterburq) qəzeti redaksiyasında işləmiş, 1908-1918-ci illərdə, xaricdə (əsasən, Türkiyə, İran və İraqda) yaşamışdır. 1919-cu ildə vətənə qayıtmış, Bakı Universitetinin yaradılmasında fəal iştirak etmiş, burada Şərq dilləri və ədəbiyyatından mühazirələr oxumuşdur. 1920-ci illərdə "Kommunist", "Bakinski raboçi", "Qızıl Şərq" (Moskva) qəzetlərində məqalələr dərc etdirmiş, Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin işində yaxından iştirak etmişdir. 1922-ci ildə Şahtaxtinskiyə fərdi pensiya təyin olunmuşdu. Elmi, tənqidi və publisist əsərlərində Şahtaxtinski müstəmləkəçilik, irqçilik, qadın əsarəti, dövlət quruluşu, demokratiya, xalq hakimiyyəti, din, şəriət məsələləri və s. haqqında dövrünə görə mütərəqqi fikirlər irəli sürmüşdür. Dövrünün qabaqcıl şəxsiyyətləri Şahtaxtinskinin ədəbi, elmi və jurnalistik fəaliyyətini yüksək qiymətləndirmişlər.



## Behbud Şahtaxtinski

Şahtaxtinski Behbud ağa (1881, Şərur rayonunun Şahtaxtı kəndi. - 30.5.1924, Tiflis) - diplomat. 1905-1907-ci illərdə Bakıda kontor qulluqçuları ittifaqının yaradılmasında və fəaliyyətində iştirak etmişdir. 1917-1918-ci illərdə Bakı Soveti İcraiyyə Komitəsinin, Bakı Xalq Komissarları Soveti fövqəladə komissiyasının üzvü, "Hümmət" təşkilatı Mərkəzi Komitəsinin sədri olmuşdur. 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra (1920) xalq ədliyyə komissarı, eynizamanda Azərbaycan SSR-in RSFSR-də fövqəladə nümayəndəsi idi. 1920-ci ilin iyul-sentyabrında Azərbaycan haqqında, habelə Qafqaz, Türkiyə və İrandakı vəziyyətlə əlaqədar V.İ.Leninə ətraflıməruzə təqdim etmişdi. RSFSR ilə Azərbaycan SSR arasında hərbi-iqtisadi ittifaq haqqında müqaviləni V.İ.Lenin və B. Şahtaxtinski imzalamışdılar (1920-ci il, 30 sentyabr). Kominternin 2-ci konqresinə nümayəndə seçilmişdi. 1921-1924-cü illərdə Naxçıvan İnqilab Komitəsinin, Naxçıvan MSSR XKS-nin sədri, Azərbaycan SSR Xalq FKM komissarı, Xalq Komissarları Soveti sədrinin müavini və s. vəzifələrdə çalışmışdır. Naxçıvan diyarının

Azərbaycanın tərkibində muxtariyyət statusu qazanmasında mühüm mərhələ olan Moskva və Qars müqavilələrinin bağlanmasında Şahtaxtinskinin böyük xidməti olmuşdur. Onun Naxçıvan məsələsində Nəriman Nərimanovun adından Moskvada atdığı addımlar, Rusiya-Türkiyə danışıqlarında seçdiyi xətt Naxçıvana Azərbaycanın ayrılmaz bir hissəsi kimi muxtariyyət statusu verilməsinə müsbət təsir göstərmişdi.

## Məhəmməd Tağı Sidqi



Sidqi (Məhəmməd Tağı Kərbəlayi Səfər oğlu Səfərovun təxəllüsü; 22.3.1854, Ordubad şəhəri - 09.12.1903, Şərur rayonunun Qarabağlar kəndi) ) - maarifçi, pedaqoq, şair, publisist. Mədrəsə təhsili almış, klassik şərq poeziyasını və fəlsəfəsini mükəmməl öyrənmişdir. Gəncliyində ticarətlə məşğul olmuş, ailəsini dolandırmaq üçün çayxana açmışdı; çayxana, bir növ, ziyalıların, ədəbiyyat həvəskarlarının toplaşdığı mədəni mərkəz, qiraətxana rolu oynayırdı. Sidqi Ordubadda "Əxtər" (1892, maarifçi ziyalı Hüseyn Sultan Kəngərli ilə birgə), Naxçıvanda isə "Tərbiyə" ("Məktəbi-Tərbiyə", 1894) məktəbi təsis etmiş, xalq müəllimi kimi şöhrət qazanmış, ədəbi-mədəni tədbirlərin və teatr tamaşalarının əsas təşkilatçılarından olmuşdur. Elmi-pedaqoji dəyərə malik yeddidərsliyin ("Nümuneyi-əxlaq", "Töhfeyi-bənat, yainki Qızlara hədiyyə", "Müxtəsər coğrafiya risaləsi" və s.) müəllifidir (əlyazmaları Azərbaycan Mlli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanır). Sidqi müntəzəm surətdə bədii yaradıcılıqla da məşğul olmuşdur. Ordubaddafəaliyyət göstərən "Əncüməni-şüəra" ədəbi məclisinin fəal üzvlərindən idi. Pedaqoji fəaliyyəti ilə bilavasitə bağlı olan ədəbi irsi qəzəllərdən (300-dən çox), "Məsnəviyyati-mənəviyyə" adlı irihəcmli mənzumədən, "Kəbb Nəsir" mənzum hekayətindən, "Heykəli-insanə bir nəzər" ədəbi-fəlsəfi traktatından (1912-ci ildə kitab halında çap edilmişdir), 20-dən çox hekayədən ibarətdir. Sidqi Azərbaycan uşaq nəsrinin ilk yetkin nümunələrini yaratmışdır. "Məktəb hekayələri" kimi tanınan bu əsərlərdə ("Məktəbə davam", "Gözütox uşağın hekayəti", "Yalançı uşaq", "Səxavətli uşaq" və s.) o, özünün maarifçilik ideyalarını, pedaqoji görüşlərini, yüksək mənəvi-əxlaqi keyfiyyətləri bədii şəkildə təbliğ etmişdir. Onun təşəbbüsü ilə "Tərbiyə" məktəbində A.S.Puşkinin anadan olmasının 100 illik yubileyi keçirilmiş (1899), bu münasibətlə Sidqi məruzə etmişdir (1914-cü ildə kitabça halında çapdan çıxmışdır). Sidqi publisistika sahəsində də fəaliyyət göstərmiş,"Tərcüman" (Baxçasaray),

"Əxtər" (İstanbul), "Həblülmətin" (Kəlkətə), "Kaspi" (Bakı), "Nasiri" (Təbriz) və s. qəzetlərlə yaxından əməkdaşlıq etmiş, ara-sıra məqalələr dərc etdirmişdir. Ana dilində "Çıraq" adlı qəzet çıxarmaq üçün təşəbbüs göstərmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 150 illik yubileyinin keçirilməsi və xatirəsinin əbədiləşdirilməsi haqqında" 11 mart 2004-cü il tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Kukla Teatrına Məhəmməd Tağı Sidqinin adı verilmiş, onun adını daşıyan Naxçıvan şəhər 4 nömrəli və Ordubad şəhər 1 nömrəli orta məktəblərində xatirə güşələrinin yaradılması, seçilmiş şerlərinin nəşr olunması və digər tadbirlər nəzərdə tutulmuşdur. Məzarı Naxçıvan şəhərindədir.

## Cəlil Məmmədquluzadə



Məmmədquluzadə Cəlil Məmmədqulu oğlu (ədəbi təxəllüsü Molla Nəsrəddin; 22.2.1869, Naxçıvan şəhəri - 4.1.1932, Bakı) - yaızıçı, dramaturq, jurnalist, ictimai xadim. İlk təhsilini əvvəlcə mollaxanada, sonra isə üçsinifli Naxçıvan şəhər məktəbində almışdır. 1887-ci ildə Qori Müəllimlər Seminariyasını bitirmiş, İrəvan quberniyasının Uluxanlı, Naxçıvan mahalının Baş Noraşen (indiki Şərur rayonunda Cəlilkənd), Nehrəm kəndlərində müəllimlik etmişdir (1887-97). Kəndlərdə müəllim işlədiyi illər ədibin gələcək yaradıcılığı üçün zəngin material vermişdir. 1889-cu ildə yazdığı "Çay dəstgahı" alleqorik mənzum dramı onun ilk əsərlərindəndir. Bir sıra kiçik hekayələrini, "Kişmiş oyunu" komediyasını və "Danabaş kəndinin əhvalatları" (1894; 1936 ildə nəşr olunmuşdur) povestini də bu dövrdə yazmışdır.

1903-cü ildən Tiflisdə nəşr edilən "Şərqi-Rus" qəzeti redaksiyasında işləmişdir. C.Məmmədquluzadənin yazıçı və jurnalist kimi püxtələşməsində "Şərqi-Rus" qəzeti və onun redaktoru M.A.Şahtaxtlınınmühüm rolu olmuşdur. "Poçt qutusu" adlı ilk mətbu əsəri, "Kişmiş oyunu", L.N.Tolstoydan tərcümə etdiyi "Zəhmət, ölüm və naxoşluq" hekayələri ilk dəfə bu qəzetdə dərc edilmişdir.

İlk nömrəsi 1906-cı il aprelin 7-də (20-də) çıxan "Molla Nəsrəddin" jurnalının nəşrinə başlamaqla o, Azərbaycanda, eləcə də türk-müsəlman dünyasında ilk dəfə satirik jurnalistikanın əsasını qoydu. Həmin vaxtdan o Molla Nəsrəddin adı ilə tanındı. M.Ə.Sabir, N.Nərimanov, Ə.Haqverdiyev, M.S.Ordubadi, Ö.F.Nemanzadə, Əli Nəzmi, Ə.Qəmküsar kimi yazıçı və jurnalistlərlə möhkəm ideya-yaradıcılıq əlaqəsi yarandı. C.Məmmədquluzadənin təbliğ etdiyi dərin demokratizm və azadlıq ideyaları jurnala ümumxalq məhəbbəti,

beynəlxalq aləmdə böyük nüfuz qazandırdı. Çar hökuməti onu tez-tez məhkəmə məsuliyyətinə cəlb edir, "Qeyrət" mətbəəsində axtarışlar aparır, bəzən də "Molla Nəsrəddin"in nəşrini dayandırırdı.

1920-ci ilin iyun ayında C.Məmmədquluzadə ailəsi ilə birlikdə Təbrizə köçmüş, 1921-ci ildə orada "Molla Nəsrəddin"in 8 nömrəsini çap etmişdır.

C.Məmmədquluzadənin əsərləri bir sıra dillərə tərcümə edilmişdir. Azərbaycan Respublikasında bir sıra küçə və mədəni-maarif müəssisəsinə (o cümlədən Naxçıvan Dövlət Musiqili Dram Teatrına, Naxçıvan Muxtar Respublika Dövlət Ədəbiyyat Muzeyinə) C.Məmmədquluzadənin adı verilmişdir. Keçmiş Astraxan rayonu və şəhəri 1967-ci ildə onun şərəfinə Cəlilabad, vaxtilə müəllimlik etdiyi Baş Noraşen kəndi isə Cəlilkənd adlandırılmışdır. Naxçıvanda və Cəlilabadda heykəli qoyulmuşdur. Bakıda və Naxçıvanda ev-muzeyləri, Nehrəm və Cəlilkənd kəndlərində xatirə muzeyləri açılmışdır. Anadan olmasının 100 və 125 illik yubileyləri geniş qeyd olunmuşdur.

Son illərdə akademik İ.Həbibbəyli ədibin müxtəlif ölkələrdə (Fransa, Polşa və İranda) yaşayan nəvə-nəticələri ilə əlaqə yaratmışdır.

## Hüseyn Cavid



Hüseyn Cavid (Hüseyn Abdulla oğlu Rasizadə, 24.10.1882, Naxçıvan şəhəri - 5.12.1941, Rusiya, İrkutsk vilayəti) - şair, dramaturq. Ziyalı, tanınmış din xadimi Abdulla Rasizadənin ailəsində doğulmuş, ilk təhsilini Naxçıvanda mollaxanada, sonra isə M.T. Sidqinin "Tərbiyə" adlı yeni üsullu məktəbində almışdır (1894-98). Klassik üslubda ilk şerlərini də "Gülçin" və "Salik" imzaları ilə burada yazmışdır. 1899-1903 illərdə Cənubi Azərbaycanda olmuş, Təbrizin Talibiyyə mədrəsəsində təhsilini davam etdirmişdir. İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirmiş (1909), Naxçıvanda, sonra Gəncədə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir. Cavid klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. O, Azərbaycan romantizminin banilərindən, çağdaş Azərbaycan ədəbiyyatının yaradıcılarından biri olmuşdur.

Cavid sənəti bədii növ, janr və forma cəhətdən zəngindir. O, lirik şerlərin, lirik-epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir. "Keçmiş günlər" adlı ilk şer kitabı 1913-cü ildə çap olunmuşdur.

Cavid daha çox dramaturq kimi tanınmışdır. Dramaturgiyasında dövrün ümumbəşəri, böyük ictimai-siyasi və mədəni əhəmiyyətə malik problemləri əksini tapmışdır. Mənzum "Ana" (1910) pyesində nəciblik, sədaqət, mərdlik kimi keyfiyyətlərin yalnız sadə insanlarda olduğu göstərilir. "Maral" (1912) faciəsində şəxsiyyət və qadın azadlığı məsələsi qaldırılır, ailə münasibətlərində mürtəce əxlaqi görüşlər tənqid edilir. Azərbaycan ədəbiyyatında ilk mənzum faciə olan "Şeyx Sənan" (1914) əsərində xalqları bir-birindən ayıran dini və milli təəssübkeşlik əleyhinə üsyankar etiraz ruhu hakimdir. Cavid bu dövrdə tədriclə, "Haqq verilmir, alınır" ideyasına gəlib çıxmışdı. Həmin ideya "Şeyda" (1917) dramında, "Haqqını sən mübarizə ilə ala bilərsən" (1918) poemasında daha bariz ifadəsini tapmışdır. "Şeyda"da Cavid yalnız ideya və mənəviyyatlardakı ziddiyyəti deyil, real sosial ziddiyyətləri də göstərir, "füqərayi-kasibə"ni, "qabarlı əllər"i istismarçılarla mübarizəyə çağırırdı. Yaradıcılığında mühüm yer tutan "İblis" (1918) faciəsində dövrün bütün mürtəce qüvvələri - "insan insana qurddur" fəlsəfəsinin tərəfdarları, "iyirminci əsrin mədəni vəhşiləri" olan imperialist dairələri İblis surətində ümumiləşdirilmiş, işğalçı müharibələrə lənət yağdırılmışdır. Estetik ideyalarına sadiq qalan Cavid bununla yanaşı, 20-30-cu illərdə öz dövrü ilə səsləşən bir sıra əsərlər yaratmışdır. "Azər" dastanı (1920-37) bu əsərlər arasında xüsusi yer tutur. 1926-cı ildə müalicə üçün Almaniyaya gedən və bir müddət Berlində yaşayan Cavid vətənə Qərb dünyasının sosial-mənəvi ziddiyyətlərini əks etdirən bir sıra siyasi-lirik və lirik-epik şerlərlə qayıtdı. "Nil yavrusu" əsərində Cavid müstəmləkə zülmünü qəzəb və nifrətlə damğalayırdı. 20-30-cu illərdə Cavid bir sıra tarixi dramlar yazmışdır. "Peyğəmbər" (1922), "Topal Teymur" (1925) əsərlərindən sonra yazdığı "Səyavuş" (1933), "Xəyyam" 1935) tarixi dramları Cavidin tarixə, tarixi şəxsiyyətlərə baxışında ciddi bir dönüş oldu.

Hüseyn Cavidin anadan olmasının 100 və 110 illik yubileyləri geniş qeyd olunmuşdur. Naxçıvanda , Bakıda ev muzeyləri yaradılmış, Bakıda vaxtilə yaşadığı binaya barelyef təsviri olan xatirə lövhəsi vurulmuşdur. 100 illik yubileyi ərəfəsində Heydər Əliyevin təşəbbüsü ilə cənazəsi İrkutsk vilayətindən Naxçıvana gətirilib, buradakı ev muzeyinin yaxınlığında dəfn edilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə qəbri üzərində möhtəşəm məqbərə tikilmişdir (1996). 1982-ci ildə Naxçıvanda "Hüseyn Cavid poeziya teatrı" açılmışdır. Adına Bakıda, Naxçıvanda və respublikanin digər şəhər və rayonlarında küçə, bağ, məktəb, kitabxana, kinoteatr və s. mədəni maarif müəssisələri var. Bakıda əzəmətli abidəsi ucaldılmışdır.

## Məmməd Səid Ordubadi



Ordubadi Məmməd Səid (24.3.1872, Ordubad şəhəri - 1.5.1950, Bakı, Fəxri Xiyabanda dəfn olunmuşdur) - nasir, şair, dramaturq, jurnalist, tərcüməçi. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi (1938). Şair Fəqir Ordubadinin oğludur. İlk təhsilini mollaxanada almış, sonra isə görkəmli maarifçi M. T. Sidqinin yeni üsullu "Əxtər" məktəbində oxumuşdur. Atasını erkən itirdiyindən şəhərdəki ipək fabrikində fəhləlik etmişdir. Yaradıcılığa 19-cu əsrin 90-cı illərində başlamış,zəmanənin haqsızlıqlarını tənqid edən şerlər yazmışdır. Cəhalət və nadanlıq əleyhinə yazdığı "Ədəbiyyat" adlı ilk mətbu şeri Tiflisdə çıxan "Şərqi-Rus" qəzetinin 13 iyul 1903-cü il tarixli 31-ci sayında dərc olunmuşdur. 1906-cı ildə Tiflisdə "Qəflət", 1907-ci ildə isə "Vətən və hürriyyət" adlı şer kitabları çap edilmişdir. 1906-cı ilin aprelindən nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı gələcək ədibin yaradıcılıq inkişafına böyük təsir göstərmişdir. Ordubadinin "Politika aləmindən" adlı felyetonu jurnalın 2 iyun 1906-cı il tarixli 9-cu sayında çap edilmiş, beləliklə, o, jurnalın əsas əməkdaşlarından biri olmuşdur. O, Bakıda çıxan "İrşad", "Səda", "Sədayi-həqq", "Tərəqqi", "Tazəhəyat" və s. qəzetlərdə, "Tuti", "Babayi-Əmir" jurnallarında da yaxından iştirak edirdi. 1907-ci ildən Culfaya köçən Ordubadi bu illərdə ədəbi fəaliyyətini davam etdirməklə yanaşı, Cənubi Azərbaycanda Səttarxanın rəhbərliyi altında başlayan azadlıq hərəkatı ilə də yaxından maraqlanırdı. O, həmin illərdə "Molla Nəsrəddin" jurnalında, Bakıda nəşr olunan qəzetlərdə İran həyatına dair çoxlu felyeton, şer və digər yazılarla çıxış etmişdir. Ədib həmin illərdə "İki cocuğun Avropaya səyahəti" (1908), "Bədbəxt milyonçu, yaxud Rzaquluxan firəngiməab" (1914) romanlarını çap etdirmişdir. Həmin əsərlərdə maarifçilik ideyaları təbliğ olunur. 1911-ci ildə Bakıda milyonçu Murtuza Muxtarovun maddi köməkliyi ilə Haşım bəy Vəzirovun "Səda" mətbəəsində nəşr edilən "Qanlı sənələr" adlı kitabında müəllif realfaktlar və sənədlər əsasında 1905-1906-cı illərdə çar hökumətinin himayəsi və erməni daşnaksütyun partiyasının fitvası ilə törədilən milli qırğın faciəsini qələmə almışdır. 10-cu illərdə "Bağı-şah, yaxud Tehran faciəsi" (1910), "Əndəlisin son günləri, yaxud Qrenadanın təslimi"

(1914) pyeslərini də çap etdirmişdir. 1915-ci ilin yanvarında Culfada həbs olunaraq, Saritsına (indiki Volqoqrad) sürgün edilən ədib burada kommunistlərlə yaxınlaşmış, 1918-ci ildə Kommunist partiyası sıralarına girmişdir. O, 1920-ci il mayın əvvəlində Bakıya gələrək, "Əxbar" qəzeti redaktorunun müavini, bir qədər sonra isə redaktoru olmuşdur. 1925-1928-ci illərdə "Yeni yol" qəzetinin redaktoru, bir müddət "Molla Nəsrəddin" jurnalının müdiri vəzifələrində işləmişdir. 1920-ci ildən daha məhsuldar işləyən ədib şer, felyeton, publisistik məqalələr yazmış, tərcüməçiliklə məşğul olmuş, şer kitabları çap etdirmiş, "Koroğlu", "Nərgiz", "Nizami" operalarının, "Beş manatlıq gəlin", "Ürək çalanlar" musiqili komediyalarının librettosunu, "Dumanlı Təbriz" pyesini yazmış, həmçinin Nizami, Füzuli, Vaqif, Sabir və başqaları haqqında məqalələr dərc etdirmişdir.

"XII əsr Azərbaycan ədəbiyyatı və onun klassik Şərq ədəbiyyatına təsiri" əsəri ciddi tədqiqatın məhsuludur. Bütün bunlarla bərabər, o, Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisi kimi şöhrət tapmışdır. O, 20-ci illərdən əvvəl yazmağa başladığı dörd cildlik "Dumanlı Təbriz" (1933-1948) roman-epopeyası ilə Azərbaycan ədəbiyatında bu janrın əsasını qoymuşdur. Nizami Gəncəvi dövründən bəhs edən "Qılınc və qələm" (1946-1948) romanında ədib dahi şairin obrazını, o dövrün ictimai-siyasi mənzərəsini yaratmışdır. "Döyüşən şəhər" (1938), "Gizli Bakı" (1940) tarixi romanları da var. Əsərləri müxtəlif dillərə tərcümə edilmişdir. Azərbaycan SSR Ali Sovetinin (1-3-cü çağırış) deputatı seçilmiş, Lenin ordeni və "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. Respublikada bir sıra küçəyə, mədəni-maarif müəssisəsinə Ordubadinin adı verilmiş, Ordubadda və Bakıda ev-muzeyi yaradılmış, Naxçıvanda büstü qoyulmuşdur.

## Bəhruz Kəngərli



Kəngərli Bəhruz (Şamil) Şirəlibəy oğlu (22.1.1892, Naxçıvan şəhəri - 7.2.1922, Naxçıvan şəhəri) -rəssam, boyakar və qrafik. Azərbaycan rəssamlığında realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərənin müstəqil janr kimi formalaşması Kəngərlinin adı ilə bağlıdır. Uşaq ikən ciddi xəstələndiyindən ağır eşidən Kəngərli məktəbə gedə bilmir, meylini rəsmə salır, gördüklərini uşaq təxəyyülü ilə kağıza köçürürdü. Tiflisdə Qafqaz İncəsənəti Təşviq cəmiyyətinin nəzdindəki Boyakarlıq və heykəltəraşlıq Məktəbində oxumuşdur (1910-15).

Kəngərlinin zəngin bədii irsi qalmışdır. O, realist ifadəliliyi, yüksək bədii-estetik dəyəri ilə diqqəti cəlb edən çoxlu portret, mənzərə, natürmort və s. çəkmişdir. Dövrünün qabaqcıl ziyalılarının, sadə adamların portretləri ("Yaşlı kişi", "Gürcü" və s.), mövzu aktualığına və ideya məzmununa görə bu günün ictimai-siyasi hadisələri ilə səsləşən "Qaçqınlar" silsiləsinə daxil olan kişi, qadın, oğlan, qız portretləri canlılığı, reallığı və psixoloji ifadəliliyi ilə fərqlənir. Rəssamın yaradıcılığında mənzərə janrı mühüm yer tutur. Onun mənzərələrində təbiət gözəllikləri ("Şəlab", 'Dağlıq mənzərə", "İlanlıdağ ay işığında", 'Günəş batarkən", "Ağrıdağ", "Köhnə qala", "Əliabad kəndində darvaza", "Yamxana kəndinə gedən yol", "Əshabi-kəhf dağı" və s.), mədəniyyət abidələri ("Mömünə Xatun türbəsi"), ilin fəsilləri ("Payız", "Bahar") əks olunmuşdur. 1921-ci ildə Azərbaycanda açılan ilk böyük sərgidə Kəngərlinin 500-dən çox əsəri nümayiş etdirilmişdir. Əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, Moskva Dövlət Tarix Muzeyində və şəxsi kolleksiyalarda saxlanılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında" (2001, 22 may) qərarına müvafiq olaraq Naxçıvan şəhərində muzeyi yaradılmışdır.

# Naxçıvanda toy adətləri

Xalqı xalq edən onun özünəməxsus adət-ənənələridir. Bu gün «yenilik», «dünyayla ayaqlaşmaq» adı altında qədim adət-ənənələrimiz çox hallarda çağdaşlaşdırılır, təbiiliyindən çıxır. Toyla bağlı adətlərin getdikcə yaddan çıxması müşahidə olunur. Şübhəsiz, xalqın öz təməlində irəliyə doğru inkişafı gərəkdir, ancaq bu yaddançıxmalar özgəliklərin içimizə gəlməsi ilə müşaiyət olunduqda vəziyyətin acınacaqlığı daha da aydınlaşır. Araşdırmaçı Əroş Vəliyevin Şərurda toy adətləri ilə bağlı araşdırması bu mənada diqqətçəkəndir: «Hər bir xalqın milli-mənəvi dəyərlərini özündə əks etdirən fərqli toy adət-ənənələri var. Toy mərasimi bütün dünya xalqlarının həyat tərzində mövcud olan ən qədim adətlərdən biridir. Toy hər bir xalqın mədəniyyətinin ayrılmaz hissəsidir. Azərbaycanda maraqlı toy adətləri var. Hələ üstəlik hər milli azlığın, hər mahalın, hətta hər kəndin, elin özünə xas maraqlı adətləri mövcuddur. Hər birinin öz gözəlliyi var: qızbəyənmə, qızgörmə, xəbərgöndərmə, danışığagəlmə, elçilik, nişan, gəlingörmə, kəbinkəsdirmə, bayramlıq, xonçagətirmə, qız toyu, cehizaparma, xınayaxdı, gəlinaparma, oğlan toyu, üzəçıxdı, qonaqçağırma, ayaqaçdı və s. bu kimi adət-ənənələrimiz hələ də qalmaqdadır. Naxçıvan bölgəsinin toy adətləri mərasimlər içərisində özünəməxsus xüsusiyyətləri ilə seçilir. Şərur rayonunda da bu adət-ənənələr illərdən bəri nəsildən-nəsilə keçərək indiki dövrə qədər gəlib çatıb. Bu adət-ənənələr Şərur rayonunda hələ də mövcuddur. Bunlardan ilk olaraq elçi getmək adəti olub. Əvvəlcə oğlan evinin bəyəndiyi qız üçün qız evinə gəlmək razılığı alınır. Razılığı əvvəlcə xanımlar edir. Qız evinə getmək razılığı alınandan sonra «hə» cavabı almaq üçün sonra oğlan evinin ağsaqqal, ağbirçək, hörmətli adamları qız evinə xüsusi «şirin çay» adlı mərasimə toplaşırlar. «Hə» cavabı veriləndən sonra ortaya şirin çay gətirilir. «Hə» cavabı verilməyənədək oğlan tərəfi qız evində heç nəyə əl vurmaz. Ancaq qız evi bir dəfəyə razı olmaz. Oğlan tərəfini bir neçə dəfə elçi gəlməyə məcbur edirlər. Sonra razılıq verilir. Bundan sonra «üzük, yaylıq» adlı bir adət yerinə yetirilir. Qız evinə bir üzük və qırmızı rəngdə bir yaylıq aparılır. Buna «bəlgə» deyilir». Araşdırmaçının fikrincə, qız üçün alınan geyim və əşyaların qırmızı rəngdə olması xalqımızın qırmızı rəngi xoşbəxtlik, səadət simvolu hesab etməsindən irəli gəlir: «Sonra «nişan» üçün vaxt təyin olunur. Nişana aparılacaq «nişan üzüyü» alınır, geyimlər, şirniyyatlar, meyvələr, hədiyyələr hazırlanır. Qohum-əqrəba gəlin üçün nişan xonçası hazırlayır. «Nişan günü» oğlanın valideynləri və yaxın qohumları qız evinə gedirlər. «Nişan»ın xərcini oğlan evi çəkir. Buna «xərcixörək» deyirlər. Qız evinə qoyun, şirniyyat, ərzaqlar verilir. Qohumlar ətraflı tanış olurlar, sonra nişan taxılır. Bu zaman nişan

üzüyünü oğlanın bacısı, ya da yaxın qohumlardan biri gəlinin barmağına taxır. Üzüyü taxana qız tərəfi hədiyyə verir. Qız evinin adamlarından biri oğlana yemək aparır və ona da hədiyyə verilir. Bu zaman ərzində oğlan qız evinə getməz. Toya qədər oğlanı qonaq çağırırlar. Buna «ayaqaçdı» deyirlər. Oğlan bir neçə dostu, qohumları ilə birlikdə qız evinə gedir və ona qonaqlıq verilir».

Toyun vaxtı müəyyənləşdikdən sonra hər iki ailə hazırlıq işlərinə başlayır.: «Bir qayda olaraq Şərurda toy şənliyi payız aylarında keçirilir. Toydan bir müddət öncə qonaqlar dəvət edilir. Toydan qabaq qızın anasına «süd pulu» deyilən məbləğ verilir. Bundan əlavə də «başlıq» verilir. Qız evi bu pula cehiz hazırlayır. Toyun birinci günü günortaya yaxın oğlan evi aldıqları geyim və əşyaları da götürərək çalğıçılarla birlikdə qız evinə «parçabiçdi»yə gedirlər. Bu qız üçün alınan parçanın qız evində biçilib sonradan tikilməsidir. Qız evində çalğıçılar «xələt» (yəni hədiyyə) və «nəmər» (yəni pul) istəyir. Buna çox zaman «müştüksındı» deyilir. Toydakı qonaqlar üçün bir çox ləziz yeməklər hazırlanır. «Bəy»in (yəni oğlanın) atasını, əmi və dayısını «qazanaçdı»ya çağırırlar. Toyun yeməklərini bişirənlərə nəmər verilir. Nəmər verilməyənə kimi qazanların ağzı açılmır. Yeməklər düzülür. Qız-gəlinlər, cavan oğlanlar rəqs edir, yallı gedir. Şərur toylarını yallısız təsəvvür etmək çətindir. Yallı həm də bu yerlərin musiqi rəmzinə çevrilib».

Şərurda yallının tarixi qədimdir: «Toyda ağsaqqal və ağbirçəklər «Şahsənəmi», «Heyvagülü» oynayırlar.

Şərur toylarında «Xına gecəsi» də olur. Buna «Xınayaxdı» da deyirlər. Bu adəti xanımlar çox gözəl və təntənəli surətdə qeyd edirlər. Xonçaya xına, meyvə, şirniyyat və s. qoyaraq çalğıçılarla birlikdə qız evinə gedirlər. Xına xonçasını gətirən qıza nəmər (yəni pul) verilir. Xınanı gəlinin əl-ayağına, saçlarına, gənc qızların əl-ayağına qoyurlar. Bu da səadət və xoşbəxtlik rəmzi sayılır. Xına gecəsi olan günün axşamı qız evi bəy xonçası hazırlayıb oğlan evinə gedər. Orada bəyi oynadırlar, bəyin başına pul, gül atılır və bəyə hər kəs «şabaş» (yəni pul) verir. Toy gecə yarıyadək davam edir. «Qazı-qazı», «Kos-kosa» oyunları oynanılır. Yallı gedilir. Toyun sonuncu günü axşama yaxın qız evinə çalğıçılarla birlikdə gedib rəqs edirlər. Bu zaman müxtəlif mahnılar oxunur».

Oğlan evinin ağsaqqalları gəlini çıxarmaq üçün evə daxil olur. Bu zaman qız evinin balaca oğlan uşaqlarından biri qapını kəsir və nəmər istəyir: «Nəmər alandan sonra qapıdan çəkilib yol verir. Buna da «qapıkəsdi» deyirlər. Gəlini bəzəyənlərə də nəmər verirlər. Qırmızı yaylıqla gəlinin üzünü örtüb, qırmızı rəngli belbağıyla gəlinin belini bağlayırlar. Gəlinin belini bağlayan ağsaqqal üç dəfə belbağını gəlinin başından gətirib, ayağının altından keçirir. Üçüncü dəfə belində bağlayır. Düyün vurmaq olmaz. Bağlaya-bağlaya deyir:

Anam-bacım qız gəlin,
Əl-ayağı düz gəlin.
Yeddi oğul istərəm,
Bircə dənə qız gəlin.

Sonra gəlinin valideynləri və ağsaqqal, ağbirçək qohumları gəlinə xeyir-dua verir. «Gəlin havası» – «Vağzalı» sədaları altında gəlin oğlan evinə yola düşür. Gəlin çıxanda oğlanın qohumları qız evindən bir qaşıq və bir boşqab alırlar. Yol boyu qaşıqla boşqabı döyəcləyirlər. Bu da şər ruhların qorxudulub uzaqlaşdırılması mənasını daşıyır. Qız evi ağ rəngdə bir toyuğu ya xına ya da qırmızı rənglə boyayıb, boğazına qırmızı lent bağlayır. Buna «gəlin toyuğu» deyirlər. Gəlin köçəndə toyuğu onunla yanaşı aparıb nəmər alırlar. Toyuğun ağ rəngdə olması ağ gün, səadət rəmzi daşıyır. Oğlan evində gəlinin başına qırmızı alma və şirniyyat atırlar ki, bu da bolluq, bərəkət rəmzidir. Gəlin evə girəndə qapının ağzına tərs çevrilmiş şüşə qab qoyulur. Gəlin vurub qabı sındırır. Bu da şər ruhların qorxudulması, gəlinin güc-qüvvəsinin sınanmasıdır. Bəyin anası gəlinə hədiyyə verir. Buna «Dizdayağı» deyirlər. Gəlinin yanındakı qadınlar «Haxışta» deyirlər». Araşdırmaçının fikrincə, haxışta Azərbaycan toy mərasimlərində yalnız Naxçıvan toylarına məxsusdur: «Oğlan evinin xanımları gəlinin ətrafına toplaşır. Xanımlardan biri uca səslə sözləri deyir, ətrafdakılar isə bir səslə «haxışta» deyir.

Qızıl dişim laxladı, haxışta,
Verdim anam saxladı, haxışta
Anama qurban olum, haxışta
Yarı qonaq saxladı, haxışta…

Toydan üç gün sonra bəy və gəlin qız evinə qonaq gedir. Buna da «əlöpmə» deyilir. Qızın ağsaqqalları, ağbirçəkləri onlara xeyir-dua verir. Sonrakı günlər oğlanın qohumları gəlin və bəyi qonaq çağırırlar. Bu adət də yeni qurulan ailənin cəmiyyətdə özünə yer tutmasına, gələcəkdə qohumların bir-birinə qarşı mehribançılığına şərait yaradır».

Ağ dəvə düzdə qaldı hakışta,
Yükü Təbrizdə qaldı hakışta.
Oğlanı dərd apardı hakışta,
Dərmanı qızda qaldı hakışta.

Gülü atdım dənizə hakışta,
Batdı çıxmadı üzə hakışta.
Nolar bizim baxçada hakışta,
Yar gələ bir gün bizə hakışta.

Bir oğlan var biçində hakışta,
Sarı sünbül içində hakışta.
Nolar onu görərdim hakışta,
Bu həftənin içində hakışta.

Dağlar başında lalə hakışta,
Əlində var piyalə hakışta.
Mən səninəm ay oğlan hakışta,
Düşmə özgə xəyala hakışta.

Ağacın adamı var hakışta,
Yedikcə badamı var hakışta.
Hərə bir ağız desin hakışta,
Desinlər adamı var hakışta.

Bir qız gördüm biçində hakışta,
Sarı sünbül içində hakışta.
Burda bir toy olacaq hakışta,
Bu ayın içində hakışta.

Mən aşiq gözlərinə hakışta,
Qoy baxım gözlərinə hakışta.
Canım canına qurban hakışta,
Gözlərim, gözlərinə hakışta.

Bülbül qonubdu gülə hakışta,
Calaq olub gül-gülə hakışta.
Yar gəldi bağçamıza hakışta,
Xəzan gətirdi gülə hakışta.

Ulduz dönüb ay olmaz hakışta,
Yaz getməsə yay olmaz hakışta.
Könül sevən gözələ hakışta,
Gözəllikdə tay olmaz hakışta.

Qızılgül dəstə-dəstə hakışta,
Bülbül qonar gül dəstə hakışta.
Burda bir yar sevmişəm hakışta,
Ala göz, boyu bəstə hakışta.

Sənə qurban ay oğlan hakışta,
Mənə ver sən hay oğlan hakışta.
Gəzdim eli-obanı hakışta,
Yoxdur sənə tay oğlan hakışta.

Qaşların çatan oğlan hakışta,
Köynəyi kətan oğlan hakışta.
Nişanlın apardılar hakışta,
Bixəbər yatan oğlan hakışta.

Əzizim aydın olsun hakışta,
Ay doğsun aydın olsun hakışta.
İki həsrət qovuşdu hakışta,
Gözlərin aydın olsun hakışta.

Dağ başına bar gəldi hakışta,
Demə ahüzar gəldi hakışta.
Qardaşı gözləyirdim hakışta,
Birdə gördüm yar gəldi hakışta.

Girdim bağa nar üçün hakışta,
Heyva dərdim yar üçün hakışta.
Analar qız bəsləmiş hakışta,
İgid oğlanlar üçün hakışta.

Tanrı məni quş eylə hakışta,
Qanadımı gümüş eylə hakışta.
Dar yolda dar küçədə hakışta,
Yarı mənə tuş eylə hakışta.

Mən aşiqəm gün gəlir hakışta,
Ay dolanır gün gəlir hakışta.
Gözlərin aydın olsun hakışta,
Nişanlın bu gün gəlir hakışta.

Bu gün ayın onudur hakışta,
Zərxaradan donudur hakışta.
Qurban olum qardaşa hakışta,
Bu gün onun toyudur hakışta.

Gözəl yaşına gərək hakışta,
Sürmə qaşına gərək hakışta.
Toy günü tumə şalı hakışta,
Örtə başına gərək hakışta.

Bu gəlin özün bilməz hakışta,
Danışar sözün bilməz hakışta.
Suya tək gələn gözəl hakışta,
Çeşmənin sözün bilməz hakışta.

Ay gülü xonçadadı hakışta,
Atları yoncadadı hakışta.
Qurban olum qardaşa hakışta,
Güzgüsü xonçadadı hakışta.

Taley sənə yar olsun hakışta,
Ömrün yaz bahar olsun hakışta.
Könül verdiyin oğlan hakışta,
Sənə tacidar olsun hakışta.

Pəncərənin milləri hakışta,
Açıb qızıl gülləri hakışta.
Oğlanı yoldan eylər hakışta,
Qızın şirin dilləri hakışta.

Su gəldi bendə dəydi hakışta,
Kətil kəməndə dəydi hakışta.
Qardaşım bir yar sevib hahışta,
Bütün bu kəndə dəydi hakışta.

İydənin hal ləçəyi hakışta,
Ətirlidir çiçəyi hakışta.
Kaş bəxtimə düşəydi hakışta,
Oğlanların göyçəyi hakışta.

Armud ağacı haça hakışta,
Əlim dolaşdı saça hakışta.
İgid ona deyirəm ki, hakışta,
Sevdiyini ala qaça hakışta.

Sular kimi axmaram hakışta,
Başa xına yaxmaram hakışta.
Üzün görsəm bəsimdir hakışta,
Aya, günə baxmaram hakışta.

Həyəti yonca quda hakışta,
Yedik doyunca quda hakışta.
Qızın elindən aldıq hakışta,
Ağla doyunca quda hakışta.

Göydə ulduz olaydım hakışta,
Bəxtəvər qız olaydım hakışta.
Yar qapını döyəndə hakışta,
Evdə yalqız olaydım hakışta.

Yaşım üzümdən gedər hakışta,
Axar gözümdən gedər hakışta.
Çəkməyin oğlan adı hakışta,
Ağlım özümdən gedər hakışta.

Qaşların qarşı- qarşı hakışta,
Gözlərin bostan arxı hakışta.
Hara getsən tez qayıt hakışta,
Bilki, sən qoyma yalqız hakışta.

Dərmişəm şirin narı hakışta,
Şirin deyirlər yarı hakışta.
Hamıdan şirin olur hakışta,
Kiçik qardaşın yarı hakışta.

Qara toyuq hindədi hakışta,
Yumurtası hindədi hakışta.
Gəlnimizin qaş, qələmi hakışta,
Bəyimizin cibindədi hakışta.

Mən aşiqəm gəl bizə hakışta,
Bu gün axşam gəl bizə hakışta.
Qardaşımın toyudu hakışta,
Yığılıbdır el bizə hakışta.

Əmim oğlu biçində hakışta,
Köynəyi tər içində hakışta.
Getdim tərin silməyə hakışta,
Qaldım tikan içində hakışta.

İlana bax illana, hakışta,
İlan göydə fırlanır, hakışta.
An içmişəm qurana hakışta,
Gərək gedəm xuliqana hakışta.

Bibərdən uzun, ay qız hakışta,
Göydə ulduzun ay qız hakışta.
Gəl alım qardaşıma, hakışta,
Olum baldızın ay qız hakışta.

Portağalı soymuşam, hakışta,
Mis üstünə qoymuşam hakışta.
Üç gün idi acıydım hakışta,
Yarı görüb doymuşam hakışta.

Qızıl üzük laxladı hakışta,
Verdim nənəm saxladı hakışta.
Nənəmə qurban olum hakışta,
Yarı qonaq saxladı hakışta.

Qızıl üzük laxladı hakışta,
Verdim anam saxladı hakışta.
Anama qurban olum hakışta,
Məni tez adaxladı hakışta.

Divarın o üzündə hakışta,
Ceyran otar düzündə hakışta.
Bir səhər gəl, bir axşam,
Gözüm qalsın üzündə hakışta.

Samavarım qızıldı hakışta,
Yeddi yerdən sızırdı hakışta.
Mən sevdiyim oğlanın hakışta,
Qabağ dişi qızıldı hakışta.

Al almağın vaxtı var, hakışta,
Şal almağın vaxtı, var hakışta.
Oğlanın adamısız, hakışta,
Aparmağın vaxtı var, hakışta

Maşını yaşıl oğlan hakışta,
Yaman yaraşır oğlan hakışta.
Məhləmizdən keçəndə hakışta,
Qızlar savaşır oğlan hakışta

Al almağa gəlmişik,hakışta,
Şal almağa, gəlmişik hakışta.
Oğlanın adamıyıq, hakışta,
Aparmağa gəlmişik hakışta.

## Naxçıvanın Tarixi və memarlıq abidələri haqda məlumat:

**Qədim tarixə, zəngin mədəniyyətə malik olan Naxçıvanın ərazisi tarixi-memarlıq abidələri ilə olduqca zəngindir. Bugünümüzə qədər öz möhtəşəmliyini qorumuş abidələrin gələcək nəsillərə çatdırılmasını təmin etmək hər birimizin borcudur.**

Naxçıvan memarlıq məktəbi orta əsr Azərbaycan memarlıq məktəblərindən biri, XI əsrdən formalaşmağa başlamış orta əsr Azərbaycan memarlığının üslub xüsusiyyətlərini müəyyənləşdirmişdir. Naxçıvan şəhərinin Azərbaycan Atabəylərinin iqamətgahına çevrilməsi nəticəsində Naxçıvan memarlıq məktəbi yüksəliş dövrünə çatmış, Əcəminin fəaliyyəti ilə Yaxın Şərq memarlığında əhəmiyyətli rol oynamışdır. Bu dövrdə Naxçıvan memarlıq məktəbinin təsiri ilə Yaxın Şərq ölkələrində bir sıra memarlıq kompozisiyaları yaradılmışdır.

Naxçıvan memarlıq məktəbi dövrün ən mükəmməl inşaat quruluşlarının tətbiqi, binanın texniki quruluşu ilə onun bədii həllinin tektonikliyinə nail olması baxımdan ən yüksək səviyyəyə qalxmışdır. Naxçıvan memarlıq məktəbinə məxsus tikililər ümumi quruluşun abidəviliyi, ayrıntılarının zəifliyi, memarlıq bölgülərinin nikbinlik doğuran görkəmli, ornament bəzəklərinin oynaqlığı və riyazi dəqiqliyi ilə səciyyəvidir. Mömünə xatun türbəsi - Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri, 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində tikilmişdir. (Memarı Əcəmi Əbubəkir oğlu Naxçıvani). Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəgiz arvadı Mömünə Xatunun qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri 582-ci ilin məhərrəm ayında (aprel, 1186) başa çatdırmışdır. Abidənin baştağında kufi xətti ilə bu sözlər yazılmışdı: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar". Ümumi hündürlüyü 34 metr olmuş, sonralar 8 metr hündürlükdə xarici örtüyü dağılmışdır. Türbə yeraltı (sərdabə) və yerüstü hissələrdən ibarətdir. Sərdabə hissəsi 10 bucaqlıdır. Türbənin yerüstü hissəsi xaricdən 10 guşəli (bütün tərəfləri kufi kitabələrlə haşiyələnmişdir), daxildən isə dairəvidir. Türbə günbəzinin daxilində xəlifələrin adı yazılmış dörd dairəvi medalyon var. Bişmiş kərpicdən tikilmiş Mömünə Xatun türbəsinin bucaqları çıxıntı şəklində, sərtləri isə batıq formada həll edilmişdir. Türbənin bucaqlarındakı çıxıntılar kufi xətti ilə işlənmiş kitabələrlə örtülmüşdür. Türbə əvvəlki dövrlərə nisbətən mürəkkəb quruluşlu həndəsi ornamentlərlə kompozisiyaya daxil edilmiş firuzəyi kaşılarla daha da zənginləşdirilmişdir.

Türbə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qayğısı və himayəsi ilə əsaslı şəkildə restavrasiya olunmuşdur. (2003-cü il). Hüseyn Cavid

məqbərəsi - Naxçıvanda böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin qəbri üzərində ucaldılmış möhtəşəm memarlıq xatirə kompleksi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şəxsi təşəbbüsü və himayəsi ilə tikilmişdir. Məqbərə üst və aşağı - sərdabə hissələrindən ibarətdir. Hüseyn Cavidin ömür-gün yoldaşı Müşkünaz xanımın və oğlu Ərtoğrulun qəbirləri də sərdabədədir. (Hər iki qəbir 1996-cı ildə gətirilmişdir). Ədibin qızı Turan Cavid də bu məqbərədə dəfn edilmişdir. (2004-cü il). Abidə layihəsinin müəllifi əməkdar memar Rasim Əliyev, heykəltəraş Xalq rəssamı Ömər Eldarovdur. Türbənin açılışı Hüseyn Cavidin anadan olmasının 114 illiyi münasibəti ilə 1996-cı il oktyabrın 29-da olmuşdur.

İmamzadə kompleksi - Naxçıvan şəhərində, Azərbaycana yaxın sahədə memarlıq abidəsi XVI-XVII əsrlərdə formalaşmışdı. Silindrik gövdənin səthi naxçıvanlı memar Əhməd ibn Əyyub əl-Nafiz Naxçıvaninin hələ III əsrdə tətbiq etdiyi üsulla üfüqi qırmızı bişmiş və şaquli bənövşəyi rəngli kaşılı kərpiclərlə düzülmüş kitabə ilə örtülmüşdür. Kompleks 1997-ci ildə əsaslı təmir edilmişdir. İmamzadə türbəsi - Naxçıvan şəhərinin cənub-şərq hissəsində İmamzadə kompleksinə daxil olan memarlıq abidəsidir. Səkkiz bucaqlı "soğanvari" günbəzlə örtülmüş türbə-sərdabə bu sahənin keçmişdə əhəmiyyətli məqbərələr yerləşən ərazi olduğunu ehtimal etməyə əsas verir. Naxçıvan buzxanası - Azərbaycan Respublikasında ən böyük buzxanalardan biri, Naxçıvan şəhərində İmamzadə kompleksinin yaxınlığındadır. Düzbucaqlı formada olan buzxananın uzunluğu 20 metr, eni 9 metr, indiki halda 9,6 metrdir. Kərpicdən qurulmuş örtük konstruksiyasının mükəmməl həlli, naturada tikilməsi, bina örtüyünün uzununa, yüngül və dinamik konstruksiya sxemi tərzində yaradılması Naxçıvan buzxanasının səciyyəvi cəhətlərindəndir. Abidənin XII-XIII əsrdə tikildiyi güman edilir. Köhnəqala - Naxçıvan şəhərinin cənubunda, orta əsrlərə aid qala. Sasani hökmdarı III Yezdəgid (632-651/52) tərəfindən inşa edildiyi ehtimal olunur.

Yusif ibn Küseyr türbəsi - xalq arasında ata-baba türbəsi adlanır. Türbə 1162-ci ildə memar Əcəmi Naxçıvani tərəfindən inşa edilmişdir. Yusif ibn Küseyr burada dəfn olunub. Abidənin gövdəsindəki frizdə (haşiyə) kufi xətlə Qurandan ayələr yazılmışdır. Türbə yeraltı hissədən, səkkizbucaqlı yerüstü gövdədən ibarətdir. Səkkizüzlü türbənin çıxıntılı dayaqlar örtüyünün daxili günbəzi çatmatağ, xarici günbəzi isə piramida şəklindədir. Kompozisiya, tektonik aydınlığına, hissələrin mütənasibliyinə görə türbə yüksək bədii-memarlıq nümunəsidir. İsmayılxan türbəsi - XVIII əsrə aid Azərbaycan memarlıq abidəsidir. Naxçıvan şəhərində Heydər Əliyev prospektində, Təbriz mehmanxanasının qarşısında yerləşir. Vaxtilə Naxçıvan şəhərinin içərisindən axan Bazar çayının yaxınlığında inşa edilmişdir. Şərq hamamları üslubunda tikilən bina giriş, xidmət zalı,

çarhovuzlu çimərlik, xəzinə (su çəni) və ocaqxanadan ibarətdir. Zaviyyə məscidi - Naxçıvan şəhərində tarixi-memarlıq abidə. Naxçıvan memarlıq məktəbinə aid edilən məscid XVII-XVIII əsrin zəngin inşaat ənənələrinin məhsulu olduğunu göstərir. Əsaslı təmir və bərpa edilmişdir. Naxçıvan Qadınlar Məclisi burada yerləşir. Cümə məscidi - Naxçıvanda memarlıq abidəsi XVIII-XIX əsrlərdə Hüseyn Təbrizi adlı şəxs tərəfindən tikilmişdir. Ümumi sahəsi təqribən 1000 kvadratmetrdir. Bir minarəlidir.

## NAXÇIVANIN MEMARLIQ İNCİLƏRİ

**Xalqın milli varlığı, milli ruhu onun mədəniyyətində əbədi yaşayır.**

Gəmiqaya





Gəmiqaya rəsmləri

**«Əshabi-Kəhf Ziyarətgahı» dini-mədəni abidə kompleksi**





**Naxçıvanqala (e.ə. 3-cü minillik)**

**Qazançı qalası (e.ə. 3-cü minillik)**





Əlincəqala (III əsr)

Əlincəçay Xanəgahı (XII-XIII əsrlər)





Came məscidi (XVIII əsr)

**Dünyada böyük dövlətlər var, amma böyük abidələr yarada bilmirlər, imkanları yoxdur...**

**Heydər Əliyev**
**Ulu öndər**

Nuh peyğəmbərin məzarüstü türbəsi (VIII-XII əsrlər)





Qarabağlar türbəsi (XII əsr)



Yusif Küseyir oğlu türbəsi (XII əsr)

Möminə xatın türbəsi (XII əsr)






Xalq qəhrəmanı Babəkin abidəsi

Gülüstan türbəsi (XIII əsr)





Kırna türbəsi (XIII əsr)

Ordubad şəhərində buzxana abidəsi (XIV əsr)



Naxçıvan şəhərində buzxana abidəsi  (XII-XIV əsrlər)



Culfa rayonunda Qazançı körpüsü (XVI-XVII əsrlər)





Imamzadə Kompleksi (XVI əsr)



Zaviyə-Mədrəsə binası (XVII-XVIII əsrlər)

"İsmayılxan" (Şərq) hamamı (XVIII əsr)





Aza Körpüsü (XVIII əsr)



Xan Sarayı (XVIII əsr)

Xalq qəhrəmanı Koroğlunun abidəsi



**«Dədə Qorqud» abidəsi**




**Hüseyn Cavid Məqbərəsi**




AZƏRBAYCAN RESPUBLİKASI
AZERBAIJAN REPUBLIC
NAXÇIVAN
MƏTBƏXİ
NAKHCHIVAN CUISINE
adin.net

## NAXÇIVAN MƏTBƏXİ

Azərbaycanımızın ayrılmaz parçası Naxçıvan Muxtar Respublikasıdır. Həm təbiəti, həm memarlıq abidələri ilə çox zəngin olan Naxçıvan mineral sular Sirab, Badamlı, Vayxır kimi mineral suların məskənidir. Naxçıvan mətbəxi mineral suları qədər zəngindir. Digər bölgələrdən fərqli olaraq burda ət bol yağda qovrulur və qış fəsli ərzində istifadə olunur. Hər zaman olduğu kimi ilk öncə yeməklərdən başlayaq.

Küftə



Məşhur Ordubad qayğanağı



Naxçıvanda çörəksiz süfrə təsəvvür etmək mümkün deyil. Elə buna görədir ki, çörəyin çeşidli növləri var: kağız kimi incə təndir lavaşı, qalın, dəstana, kömbə və s.

# Saçda lavaş





## Arzuman küftəsi



## Çölmək pitisi



Parça bozbaş



Xaş



Umac aşı



DAŞ KÜFTƏ



Qarpız mürəbbəsi



Ayran





Qozlu Ordubad dürməyi



Naxçıvan çöçəsi



Naxçıvan paxlavası



# II Sərgi: Naxçıvan xalçaları.




















# III SƏRGİ:
## Naxçıvanın dadı damaqdan getməyən meyvələri...

**Şərur şaftalısı – yerlilərin dili ilə desək: "Şələlisi" ilə məhşurdur. Şaftalı cana məlhəm olan meyvədir.**

## ŞƏFTƏLİ



# Ordubad əriyi

**Ordubadın ən məşhur meyvələrindən biri ərikdir. Xüsusi ləzzəti, böyüklüyü, şirinliyi, rəngi və ətriylə fərqlənir.**



# Ordubad limonu

**Ordubaddan danışarkən, yada düşən ilk meyvə limondur.**



# GÖYCƏ

**Naxçıvan göycəsi kəm-turş dada malik, orta böyüklükdə meyvədir. Bu meyvə o qədər sulu olur ki, 10 gün müddətinə yığılmadıqda ağacda partlayır, şirəsi axır. Göycə ağacının qələmi başqa yerdə əkilərsə, onun məhsulu xələfindən fərqli olaraq dadsız olur.**



# ORDUBAD CƏVİZİ

**Qoz və yaxud, naxçıvanlıların dili ilə desək: "Ceviz". Naxçıvanda ən dadlı qoz Ordubadda yetişir.**



# ŞAHBUZ BADAMI



# ÜZÜM

**Üzüm çox faydalı və qiymətli bitkidir.**



# NEHRƏM QARPIZI



# NAXÇIVANIN
# MİNERAL SULARI

# SİRAB

# HƏR DAMLASINDA HƏYAT VAR...



# BADAMLI
# BADAMLI ADI VAR, BADAMLI DADI VAR...



**BÖLMƏ IV**
**Keçiriləcək Tədbirlər:**

**Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar olaraq respublikamızın bir çox təhsil ocaqlarında olduğu kimi F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da geniş tədbirlər planı hazırlanmışdır. Belə tədbirlər planına Naxçıvan Muxtar Respublikasının tarixinə aid bir çox ədəbiyyatları ( ensiklopediyaları, kitab, qəzet, jurnal və metodiki vəsaitləri) əks etdirən daimi sərginin təşkil olunması olduqca əhəmiyyətlidir. Bu çür sərgilərin olması, daha vacib və məqsədəuyğundur. Çünki, kitabxanaya gələn oxucuların diqqətini belə sərgilər daima cəlb edir. Kitabxanada təşkil olunan kitab sərgiləri ilə yanaşı oxucuların diqqətini daha da cəlb etmək məqsədilə sərgilərlə yanaşı digər əyləncəli sərgiləri də qarşılıqlı şəkildə təşkil etmək olar. Bu məqsədlə ayrıca guşə təşkil olunmalıdır. Burada Naxçıvan Muxtar Respublikası haqqında ədəbiyyat nümayiş olunmaqla yanaşı, divarlarda rayonun gözəl guşələrinin fotoları, rəsmləri asılır və tarixi abidələrin maketlərindən istifadə olunur. Sərgilərin təşkili zamanı kitabxanaçılar Naxçıvan Muxtar Respublikasına aid sitatlardan, hikmətli sözlərdən geniş**

**istifadə etməlidir. Nümunə olaraq Ümummilli liderimiz Heydər Əliyevin, İlham Əliyevin və s. Naxçıvana dair söylədikləri sitatları sizə təqdim edirik:**

**SİTATLAR:**

**1. Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz bir hissəsi kimi milli azadlıq uğrunda, dövlət müstəqilliyimiz uğrunda gedən mübarizələrdə həmişə ön sırada olmuş, təşəbbüskar olmuşdur. Azərbaycanda dövlət müstəqilliyi, milli azadlıq yolunda gedən mübarizənin dayağı olmuşdur və bu gün də dayağıdır, gələcəkdə də belə olacaqdır. Ona görə də Naxçıvan Muxtar Respublikasına Azərbaycanın hər yerində böyük hörmət və ehtiram hissi var.**

**Heydər Əliyev**
**Ulu öndər**

**2. "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılması barədə sərəncam imzalamışam. Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var".**

**H. Əliyev**
**Ulu öndər**

**3. Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır.**

**H. Əliyev**
**Ulu öndər**

**4. Naxçıvanda əsl quruculuq işi, sənayenin, kənd təsərrüfatının inkişafı-bunların hamısı 1970-cı illərdən başlayaraq gedibdir.**

**H. Əliyev**
**Ulu öndər**

**5. Həm müstəqilliyi əldə etmək...həm də hüquqi dövlət qurmaq üçün Naxçıvan ilk təşəbbüskarlardandır. Fəxr edirəm ki, mən bu təşəbbüslərin iştirakçısı olmuşam.**

**H. Əliyev**
**Ulu öndər**

**6. “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq”**

**H. Əliyev**
**Ulu öndər**

**7. Naxçıvan mənim ana torpağımdır.**

**H.Əliyev**
**Ulu öndər**

**8. Qədim Naxçıvan torpağına eşq olsun!**

**H.Əliyev**
**Ulu öndər**

**9. Müqəddəs Naxçıvan torpağı mənim üçün əziz bir yerdir. Mən bu torpağın qarşısında baş əyirəm.**

**H.Əliyev**
**Ulu öndər**

**10. Naxçıvanın böyük və zəngin tarixi vardır. Bu tarixin dünya mədəniyyətinə, bəşər mədəniyyətinə böyük töhfələri olmuşdur.**

**H.Əliyev**
**Ulu öndər**

**11. Naxçıvan haqqında mənim ürəyim o qədər doludur ki, nə qədər desəm yenə də tükənməz.**

**H.Əliyev**
**Ulu öndər**

**12. Naxçıvanın qədim dövlətçilik tarixi vardır. Bu, Azərbaycanın dövlətçilik tarixidir.**

**H.Əliyev**
**Ulu öndər**

**13. Mən çox sevinirəm ki, Naxçıvanda gözəl quruculuq və abadlıq işləri aparılır. Blokada şəraitində yaşayan, Azərbaycanın əsas hissələrindən ayrı düşmüş Naxçıvan yaşayır, güclənir, və irəliyə doğru inamla addımlayır”.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**14. Naxçıvanda maarifçilik ruhu dərindir və dəyərlidir. Naxçıvan dünya sivilizasiyasının beşiklərindən biridir. Nuh peyğəmbərin əfsanəvi gəmisi burada – Gəmiqayada yerə enib.**

**İsa Həbibbəyli**
**Əməkdar elm xadimi**
**professor**

**15. Naxçıvan – Oğuz yurdudur.**

**İsa Həbibbəyli**
**Əməkdar elm xadimi**
**professor**

**16. Naxçıvan Azərbaycana və dünyaya Heydər Əliyev kimi böyük dövlət xadimini bəxş edib.**

**İsa Həbibbəyli**
**Əməkdar elm xadimi**
**professor**

**17. Naxçıvan – Mirzə Cəlilin, Hüseyn Cavidin, Bəhruz Kəngərlinin vətənidir.**

**İsa Həbibbəyli**
**Əməkdar elm xadimi**
**professor**

## KİTAB SƏRGİSİ:







Nafilə Abuzərli
BƏŞƏRİN BEŞİYİ


Hafizə Əliyeva
NAXÇIVAN
NECƏ
Döyüşdü
müdafiə olundu
Bakı - 2009


İBRAHİM ETHEM ATNUR
MUXTARİYYAT ƏRƏFƏSİNDƏ
NAXÇIVAN
NDU "QEYRƏT" NƏŞRİYYATI
NAXÇIVAN-1999


FUAD ƏLİYEV
MİRABDULLA ƏLİYEV
NAXÇIVAN
XANLIĞI


NAXÇIVAN
SANCAĞININ
MÜFƏSSƏL
DƏFTƏRİ
Sisyan
Dərənürgüt
Azadciran
Şorlut
Dərəşam
Araz çayı


Həmid Aslanlı
Biləv
TƏBİƏTİ
TOPONİMİKASI
TARİXİ
ETNOQRAFİYASI


Əli Əliyev
ƏLİNCƏ
YADDAŞI


KƏMALƏ
ƏLİXAN
MƏHƏLLƏSİ


AZƏRBAYCAN
XALÇAÇILIQ
SƏNƏTİ


ELSEVƏR İSRAFİLLİ
SÖZLƏ AÇDIM
ÜRƏKLƏRİ


"MƏN VƏ MƏNİM DÜNYAM"
GÜVƏNCİN
NAĞILLARI
Naxçıvan


"MƏN VƏ MƏNİM DÜNYAM"
GÜVƏNCİN
NAĞILLARI
Əlincə
qalası




## Naxçıvan haqqında nağıl

Mən deyim yüz min il, sən denən beş yüz min il, mən deyim milyon il, sən denən on milyon il bundan əvvəl külli-aləmi lərzəyə gətirən bir tufan qopur. Dağ-daş yerindən oynayır, dənizlər bir-birinə qovuşur, hər tərəfi sel-su basır.

Yekəpər fillər, uzunboyun zürafələr, çaydaq dəvələr, iribuynuzlu marallar, xallı pələnglər, alagöz çeyranlar, yastıdaban ayılar, bədöy atlar, şələquyruq tülkülər bilmirlər ki, canlarını qurtarmaq üçün hara qaçsınlar. Qonmağa bir bir qaya, ağac tapmayan koğadimdik qartallar, xınalı kəkliklər, çil-çil bildirçinlər yurd-yuvalarını tərk edib, havadaca fırlana-fırlana qalırlar.

Qorxudan özlərini itirmiş insanlar Nuh peyğəmbərin yanına qaçırlar:

-Ya peyğəmbər, bu nə işdi başımıza gəlir? Əkin-biçinimiz məhv olur. Mal-qaramız qırılır. Bizə bir yol göstər.

Nuh peyğəmbər deyir:

-Vaxt itirmədən elə bir şey düzəltməliyik ki, sudan yüngül olsun.

İnsanlar bir-birilərinin üzünə baxırlar:

-Sudan yüngül nə ola bilər?

Nuh peyğımbər deyir:

-Gəmi.

İnsanlar yenə bir-birilərinin üzünə baxırlar:

-Gəmi nədi?

Nuh peyğımbər deyir:

-İri təknə.

İnsanlar soruşurlar:

-Axı, biz onu necə düzəldə bilərik?

Nuh peyğəmbər deyir:

-Meşədə nə qədər iri gövdəli quru ağac varsa, yığın gətirin bura.

İnsanlar yollanırlar meşəyə. Rastlarına nə qədər iri gövdəli quru ağac çıxırsa, yığıb gətirirlər.

Nuh peyğəmbər deyir:

-İndi bunların içini oyun.

İnsanlar ağacların içini oyurlar.

Nuh peyğəmbər deyir:

-İndi bunları bir-birinə bənd edin.

İnsanlar içi oyulmuş ağacları bir-birinə bənd edirlər. Nəhəng bir gəmi alınır.

Nuh peyğəmbər deyir:

-Hə, indi biz gəmini hərəkətə gətirmək üçün gərək bir neçə avar da düzəldək.

Elə ki, avarlar da hazır olur, Nuh peyğəmbər deyir:

-Hər heyvandan ikisini, -biri erkək, biri dişi-hər bitkinin toxumundan da bir ovuc yığın gəmiyə.

Nuh peyğəmbər necə deyirsə, insanlar elə də eləyirlər. Filləri, zürafələri, dəvələri, maralları, pələngləri, ceyranları, ayıları, atları, tülküləri, qartalları, kəklikləri, bildirçinləri, ta dünyada nə qədəer quş, heyvan varsa, hamısından iki-iki-biri erkək, biri dişi-yığırlar gəminin bir tərəfinə. Sonra hər bitkinin toxumundan da bir ovuc götürürlər. Ta nolacaq, su qalxdıqca, gəmi də başlayır öz-özünə qalxmağa. Adamlar bir də baxıb görürlər ki, dörd tərəfləri sudu.

Nuh peyğəmbər deyir:

-İndi bir yerdə durmaq olmaz. Avarları çəkin, gəmi hərəkətə gəlsin. Bəlkə üzə-üzə quruya çıxdıq.

Elə də edirlər. Düz qırx gün, qırx gecənin tamamında gəmi nəyəsə ilişib dayanır.

Nuh peyğəmbər deyir:

-Şükür, axır ki, quruya çıxdıq.

Elə bu vaxt su da başlayır yavaş-yavaş çəkilməyə. Baxıb görürlər bura elə bir yerdi ki, dağ desən, dağı var, düzənlik desən, düzənliyi.

Nuh peyğəmbər deyir:

-İndi gəmini boşaldın. Quşları, heyvanları açıb buraxın. Toxumları səpin.

İncəfara yaz ağzı idi. Bir-iki günün içində hər tərəf yamyaşıl oldu. Gül-gülə qarışdı, çiçək-çiçəyə. Taxıl, darı, çəltik zəmiləri dizdən yuxarı qalxdı. Heyvanlar oynaqladılar, quşlar civildəşdilər. Belə rəvayət eləyirlər li, insanlar gəminin ilk dəfə çıxdığı həmin yeri “Nuhçıxan” adlandırdılar. Sonradan da bu söz dildən-dilə, ağızdan-ağıza düşə-düşə olur “Naxçıvan”.

Hə, bir də belə rəvayət eləyirlər ki, Nuhun gəmisi quruya çıxandan sonra daşa dönür, adı da olur "Gəmiqaya"...

## "Naxçıvandır, Nəqşi –Cahandır, Azərbaycandır!"

**"Naxçıvan- Azərbaycanımızın misilsiz elm və mədəniyyət mərkəzi, onun ayrılmaz ürəkparasıdır, müqəddəs Azərbaycanımızın döyünən qəlbi, düşünən beyni olmuşdur. Əsrlərin sınağından keçən döyüşkən Naxçıvan, Azərbaycanın vuran əli Naxçıvan!..**

**Əgər Azərbaycan-qədim odlar yurdu Türk dünyasının qızıl üzüyüdürsə, Naxçıvan onun qeyrət daşıdır..."**

**I Aparıcı:** Əsrlərin daş yaddaşına pozulmaz izlər salan qədim Naxçıvan şəhəri yerləşdiyi coğrafi əraziyə, ictimai, siyasi, iqtisadi və mədəni qüdrətinə görə əsrlər boyu alim və tədqiqtçıların diqqət mərkəzində dayanmış və öz zəngin mədəniyyəti, memarlıq məktəbi, milli adət-ənənələri ilə dünya mədəniyyəti tarixinə daxil olmuşdur.

Tarixən bu şəhər haqqında çox yazılmış, çox deyilmişdir. Bir rəvayətə görə, Naxçıvan Naşva (dünyanın bəzəyi) adı ilə dünyanın dördüncü şəhəri olub. Başqa söyləmələrə görə, şəhərin adı Nuh peyğəmbərlə əlaqələndirilmiş, "Naxçıvan" sözünün "Nuhçıxan", "Nuhçuvan" sözlərindən törətdiyi qeyd olunmuşdur.

Naxçıvan bir yaşayış məntəqəsi kimi hələ beş min il bundan əvvəl təşəkkül tapmış, inkişaf etmişdir. Zaman-zaman çiçəklənən, yaraşıqlanan Naxçıvan Şərq dünyasının bəzəyi, alınmaz qala, müqəddəs el olmuşdur.

**II Aparıcı:**

**Naxçıvan əzəldən od məkanıdı, yanar odlar yurdudu. Gözərən ocağımız, laylalı ana qucağımızdı. Qismətimiz-hikmətimizdi, ismətimiz-qeyrətimizdi, hünərimiz-zəfərimizdi, ilham pərimiz, şah əsərimizdi. Anamız Azərbaycanımızdı Naxçıvan.**

**(Bir qrup məktəbli uşaqlar səhnəyə daxil olur). Onlar öz aralarında fikir mülahizələri aparırlar.**

Dostlar, deyin görək bu il yay tətilini harada keçirmək istəyirsiz? Uşaqlardan biri Gəncə, biri Zaqatala, o biri isə Quba deyir. Bu zaman Tofiq fərəh hissi ilə söyləyir. Mən bu yay tətilini Türkiyədə keçirmək istəyirəm. Bir bilsəz Türkiyədə nə qədər gəzməli yerlər var... Söhbətə səbirlə qulaq asan Vasif söyləyir. Dostlar, mən isə yay tətilini anadan olduğum doğma diyarım Naxçıvanda keçirmək istəyirəm. O, dostlarına müraciət edərək deyir:

- Uşaqlar, gəlin yurdumuzun gəzməli-görməli yerlərinə istirahətə gedək. Mənim sizə bir təklifim var. Məncə yay tətilində Naxçıvana getsəz daha yaxşı olar. Mən keçən il ailəmlə birlikdə Naxçıvanda istirahət etmişəm. Heç bilirsiz

Naxçıvanın necə gözəl gəzməli-görməli yerləri var. Götürək elə Batabatı, Xal-xal meşəsini, Ordubadı. O qədər səfalı havası, buz kimi şirin suyu, bulaqları, çeşmələri var ki, gəzdikcə, seyr etdikcə doymaq olmur. Hələ mən əzəmətli dağlarını, qədim abidələrini, muzeylərini, ziyarətgahlarını demirəm. Götürək elə, "Ashabi-Kəhf" ziyarətgahını, "Yusif-Küseyr, "Mömünə-Xatun məqbərəsini", görkəmli şairimiz "Hüseyn Cavid məqbərəsini" və s. yerləri. Hələ məşhur "Qızlar bulağını" demirəm. Yadımdadır babam deyərdi ki, hansı qız "Qızlar bulağından" su içsə o qız daha da gözəlləşər, saflaşar. **Tək bircə dəfə Naxçıvanı gəzmək bəhs edər ki, qəlbin ilhamla dolsun, könlündən poetik duyğular keçsin.** Bir sözlə əziz dostlar, əbəs yerə demiyiblər ki, Ey könül mülkünün barı Naxçıvan. Bəh-bəh bir sözlə bu diyarın gözəlliyinə söz ola bilməz. Uşaqlar gəlin etiraf edək ki, Anamız Azərbaycanımızın hər biri qarışı, hər bir yeri gözəldir.

**Aygün Bəylərin ifasında "Qızlar bulağı" romansı səslənir.**

Uşaqlar səhnəyə daxil olur. Məhərrəm Ağalarovun "Naxçıvanım" şeirini söyləyir

**Bil, həyatın mənzərədir,**
**Göz bəbəyim Naxçıvanım.**
**Siyasətçi alimlərin**
**Vətənisən Naxçıvanım.**
************************

**Abidələr diyarısan,**
**Ulu türkün baş tacısan,**
**Azərbaycan torpağısan**
**Ulu yurdum Naxçıvanım.**
**************************

**İgidlərin mərddir sənin,**
**Atabəylər Eldənizin,**
**Sıra dağın, Əlincənin**
**Vətənisən Naxçıvanım.**
*************************

**Ordubadda soyuq dağın,**
**Badamlı dərman suların,**
**İgid olub hər övladın**
**İgid elim Naxçıvanım.**
************************

☺Dostlar, gəlin bir viktorina keçirək. Kim bu viktorinada fəal iştirak etsə qalib olacaq və kitabxanamızın müdriyyəti tərəfindən mükafatlandırılacaqdır.

☺Ən dadlı meyvə?

Ordubad əriyi, Göycə, şaftalı, Hülü, Ordubad limonu.

☺Ən dadlı quru-meyvələr?

Ordubad cəvizi,  Şahbuz badamı, Tut qurusu, İydə.

☺Ən dadlı və müalicəvi mineral sular?

"Badamlı", "Sirab", "Vayxır" minaral suları bütün dünyada məşhurdur.

☺Uşaqlar qarşıdan bizim ən sevimli və milli bayramımız olan Novruz bayramı gəlir. Deyə bilərsinizmi ki, bu bayramda Naxçıvan bölgəsində hansı şiriyyat növü bişirilir?

Mən cavab verə bilərəm. Naxçıvanda, əsasən də ilaxır çərşənbədə hər yerdə olduğu kimi paxlava, şəkərbura və Naxçıvan çöçəsi bişirilir.

☺Hansı tarixi abidələrinin adlarını çəkə bilərsiniz?

"Mömünə Xatun türbəsi", "Yusif Küseyr" türbəsi, "Xan sarayı" və s.

☺ Hansı tarixi şəxsiyyətlərin adlarını çəkə bilərsiniz?

Heydər Əliyev, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, M.S. Ordubadi, Məmməd Araz, Y. Məmmədəliyev, Cəmşid Naxçıvanski, Əliqulu Qəmküsar və s.

İndi isə Uşaqların ifasında "Şərur" yallısına tamaşa edək.

Oxucular səhnəyə daxil olur Abdula Qurbaninin Naxçıvandır, Nəqşi-Cahandır, Azərbaycandır adlı epiloqunu söyləyirlər.

**Dağları qartallı, çayları coşqun,**
**Bağları meyvəli, Düzü laləli,**
**Xınalı kəklikli, sarı bülbüllü,**
**Nərgizli, süsənli, şeh piyaləli**
**Hansı məkandır?**
**Naxçıvandır,**
**Nəqşi-cahandır**
**Azərbaycandır!**

*************************

**Əsrlər şahidi qalalar, bürclər,**
**Hər daşı, qayası tarixdən nişan,**
**Vətənə, ulusa, torpağa bağlı,**
**Öz ana dilində yazıb-danışan**
**Hansı məkandır?**
**Naxçıvandır,**
**Nəqşi-cahandır**

**Azərbaycandır!**
**********************
**Gümüşlü mədəni, qara mərməri,**
**Tükənməz sərvəti, ömrü duz dağı.**
**Əyilməz, yenilməz möhtəşəm diyar,**
**Düşmənə, yağıya sipər, göz dağı**
**Hansı məkandır?**
**Naxçıvandır**
**Nəqşi-cahandır**
**Azərbaycandır!**
*********************
**Batabat meşəli, Qızlar bulaqlı,**
**Xalçalı, bağçalı, Novruz xonçalı,**
**Cəlilli, Cavidli, Məmməd Səidli,**
**Əcəmi naxışlı, Bəhruz fırçalı**
**Hansı məkandır?**
**Naxçıvandır**
**Nəqşi- cahandır**
**Azərbaycandır!**
**********************
**Dostların üzünə qapısı açıq,**
**Nəğməli, qoşmalı, şirin avazlı.**
**Ağ  Aşıq ilhamlı, Nabat həvəsli,**
**Məclisi ozanlı, sədəfli sazlı**
**Hansı məkandır?**
**Nəqşi-cahandır**
**Azərbaycandır!**
************************

**Culfanın, Şahbuzun hünəri bəlli,**
**Dar gündə tanınar Ordubad, Babək.**
**Əjdəkan, Ağoğlan, salvartı,Xal-xal,**
**İgidlər oylağı Şərur, Sədərək**
**Hansı məkandır?**
**Naxçıvandır,**
**Nəqşi-cahandır**
**Azərbaycandır!**

Naxçıvan! Ulu diyar! Qədim türk məmləkəti! Təbiətin heç nəyi əsirgəmədiyi gözəl bir məkan. Zaman-zaman uca-uca dağları çiyin-çiyinə verərək bu torpağı sərt

küləklərdən qorumuş, axan çayları şaqraq nəğmələrlə bu torpağa xeyir bərəkət gətirmiş, yaşıl-yaşıl meşələri ceyran-cüyür oylağı olmuşdur. Yayın qora bişirənində Şərur düzlərində yer göy-ad tutub yananda, Culfanın, Babəkin çılpaq dağlarında, təpələrində, ilan mələyəndə Ordubadın Göy-gölü, Şahbuzun Bata-Bat yaylaqları yanar ürəklərə su çiləmiş, şəfa bulaqları yayın odunu-alovunu söndürmüşdür. Nənələrimiz bitib-tükənməyən Duz dağına baxaraq “Ömrünüz Duz dağına dönsün”!-deyərək xeyir-dua vermişlər.

Qədim Naxçıvanın hər qarışı, hər parçası Azərbaycan tarixinin bir dövr mərhələsindən xəbər verir. Sanki, bu qədim Türk ulusunda daşlar da, qayalar da dil açıb danışır.

Əsrlər boyu Naxçıvan torpağı bütün dünyanın nəzər diqqətini cəlb etmişdir. Təbiətin ona bəxş etdiyi cazibədar gözəllik, böyük sərvət, var-dövlət yadelliləri tarix boyu şirnikləşdirmiş, bu yerlərə qoşunlar yeridilmiş, qanlar tökülmüş, lakin Naxçıvan əyilməz qala kimi bütün sınaqlardan uğurla çıxmışdır. Bu yurda qatır gəlsə dırnaq, quş gəlsə qanad salmışdır. Ulu Naxçıvanımız beləcə XXI əsrin astanasınacan şərəfli bir yol keçmişdir. Dünya səyyahları, alimlər, tədqiqatçılar həmişə bu müqəddəs cahan haqqında fəxrlə danışmış, adamlarının mərdliyindən, igidliyindən, toppağının səxavətindən, müqəddəsliyindən geniş söhbət açmışlar.

---

Aparıcı:

“O Naxçıvandı, nəqşi cahandı-Azərbaycandı”. Hər dəfə bu təkrarsız mahnını eşidəndə ürəyim dağa dönür, xəyalım zirvələrdə qərar tutur , qürur bağlayıram, fəxr edirəm, öyünürəm, sevinirəm. Və Öz-özümə “nə şirin avazdı, nə sehirli sazdı. Zilə çək zillən, telə çək tellən. Ovsunla qəlbimizi, odla ürəyimizi” deyirəm. Naxçıvan anamız, Odlar yurdumuzun odlı parçasıdı. Bütövlüyümüzün təsdiqi, ayrılmazlığımızın təntənəsidi. Gözümüzdü göz bəbəyimizdi, öz taleyimiz, öz ürəyimizdi. Naxçıvan torpağımızın, xalqımızın mərd qayası, keçilməz səddi, alınmaz qalası, basılmaz elidi-obasıdı.

(O Naxçıvandı, Nəqşi cahandı mahnısı səslənir)

Bu müqəddəslikdə əfsanələşən, baxışından dünya mənalanan Babəkin misri qılıncı şəfəq saçır, qəlbinin döyüntüsü eşidilir. Öz dərin məzmunu və lirizmi ilə səciyyələnən Naxçıvan memarlıq məktəbinin banisi, dünya şöhrətli incilər yaradıcısı Əcəminin əməli yaşayır, arzusu yuvalanır. Cavidin gül-çiçəyə qərq olan məzarı uyuyur, ruhu şad olur. Dahi Cəlil qranitə dönüb, bürünclənib heykəl olub. Naxçıvan ərənlərin, qeyrətlilərin, ismətlilərin gözərən ocağı, isti ana qucağıdır. Vətənə qurban olan, qurban gedənlər ölkəsidir.

Əsrlərcə qəlbindən min yara alan, gözlərilə od götürən Naxçıvan eli, Naxçıvan camaatı bu gün daha böyük əzm və inadkarlıqla ana yurdunun, doğma torpağının keşiyini çəkir, vətənini yadellilərdən, namərdlərdən qoruyur. “Vətən o

kəsindir ki, uğrunda qurban gedir, torpaq o kəsindir ki, öz qanı ilə torpağını müqəddəsləşdirir” zəfərilə düşmənə qənim kəsilir, qan içənlərə qan uddurur...

(Oxucular səhnəyə daxil olur. Kəmalə Ağayevanın “Doğma Azərbaycanım” adlı şeirini söyləyirlər)

**I Oxucu:**

**Gözəllik içində gördüm yurdumu,**
**Ona bəzək vuran əllərə alqış .**
**Bir anda könlümdən qovdu dərdimi,**
**Məni ovunduran dillərə alqış.**

***************************************************

**Sinəsi gülşəndir, elləri şəndir,**
**Sevinci mənimlə tən bölüşəndir.**
**Bura diyarımdir, bura Vətəndir,**
**Məni sevindirən ellərə alqış.**

***************************************************

**II oxucu:**

**Qovuşdu ömrümə gəzdiyim yollar,**
**Məni qucaqladı sevgili qollar.**
**Gəldi xəyalıma yaşanan illər,**
**Vəfalı, vəfasız illərə alqış.**

***************************************************

**Ah, bu ayrılıqlar kaş olmayaydı,**
**Bir də ki, ürəklər daş olmayaydı.**
**Güllər də ətrini sinəmə yaydı,**
**Çəmənlərə alqış, güllərə alqış.**

*************************************************

**A yurdum, qurbanam bu vüsalına,**
**Bu gözəl çağına, bu cəlalına,**
**Axır ki, qovuşdun istiqlalına,**
**Sabaha aparan yollara alqış.**

**Yaranışı qədim dövrlərə gedib çıxan Azərbaycanın mədəniyyət, elm mərkəzlərindən biri olan Naxçıvan özündə zəngin irsimizi qoruyub saxılayır. Bu irsin mühüm bir hissəsi Şərq memarlığını özündə əks etdirən tarixi abidələrimizdən ibarətdir.**

**Qədim tarixə, zəngin mədəni irsə malik Naxçıvan torpağı öz təbii gözəlliyi ilə fərqlənir. Tanrı bu bölgəyə bir-birindən gözəl, ezazkar təbiət mənzərələri bəxş edib. Bu qədim yurdun torpaqlarını qarış-qarış gəzdikcə hər obada, hər dağ çığırında bir sehrli aləm görmək olur.**

**(Oxucular səhnəyə daxil olur Abdulla Qurbaninin “Naxçıvandır, Nəqşi-Cahandır, Azərbaycandır) adlı epiloqunu söyləyirlər.**

**Dağları qartallı, çayları coşqun,**
**Bağları meyvəli, düzü laləli,**
**Xınalı kəklikli, sarı bülbüllü,**
**Nərgizli , süsənli, şeh piyaləli**
**Hansı məkandır?**
**Naxçıvandır,**
**Nəqşi-cahandır**
**Azərbaycandır!**

**Əsrlər şahidi qalalar, bürclər,**
**Hər daşı, qayası tarixdən nişan,**
**Vətənə, ulusa, torpağa bağlı,**
**Öz ana dilində yazıb-danışan**
**Hansı məkandır?**
**Naxçıvandır,**
**Nəqşi-cahandır**
**Azərbaycandır!**

**Gümüşlü mədəni, qara mərməri,**
**Tükənməz sərvəti, ömrü duz dağı.**
**Əyilməz, yenilməz möhtəşəm diyar,**
**Düşmənə, yağıya sipər, göz dağı**
**Hansı məkandır?**
**Naxçıvandır,**
**Nəqşi cahandır**
**Azərbaycandır!**

**Batabat meşəli, Qızlar bulaqlı,**
**Xalçalı, boxçalı, Novruz xonçalı,**
**Cəlilli, Cavidli, Məmməd Səidli,**
**Əcəmi naxışlı, Bəhruz fırçalı**
**Hansı məkandır?**
**Naxçıvandır,**
**Nəqşi-cahandır**
**Azərbaycandır!**

**Dostların üzünə qapısı açıq,**
**Nəğməli, qoşmalı, şirin avazlı.**
**Ağ Aşıq ilhamlı, Nabat həvəsli,**
**Məclisi ozanlı, sədəfli sazlı**
**Hansı məkandır?**
**Naxçıvandır,**
**Nəqşi-cahandır**
**Azərbaycandır!**

**Culfanın, Şahbuzun hünəri bəlli,**
**Dar gündə tanınar Ordubad, Babək.**
**Əjdəkan, Ağoğlan, Salvartı, Xal-xal,**
**İgidlər oylağı Şərur, Sədərək**
**Hansı məkandır?**
**Naxçıvandır,**
**Azərbaycandır!**

**Ən ağır məqamda, ən ağır gündə,**
**Düşməni sarsıdan, düşməni əzən.**
**Bütün sınaqlardan uğurla çıxan,**
**Ağrıya, acıya, əzaba dözən**
**Hansı məkandır?**
**Naxcıvandır,**
**Nəqşi-cahandır-**
**Azərbaycandır!**

**Amalı uğrunda şəhidlər verən,**
**Yağılar üstündə zəfər çaldıran.**
**Sərhədlər dağıdan, bəndləri sökən,**
**Yenidən üçrəngli bayraq qaldıran**
**Naxçıvandır,**
**Nəqşi-cahandır**
**Azərbaycandır!**

**Odlar diyarının odlu guşəsi,**
**Vətənə, dövlətə, sadiq vətəndaş.**
**Qarabağ, Lənkəran, Milə, Muğana,**
**Bakıya, Şirvana, Gəncəyə qardaş**
**Hansı məkandır?**

**Naxçıvandır,**
**Nəqşi-cahandır**
**Azərbaycandır!**

**Zəfər yürüşündə, ər yarışında,**
**Həmişə birinci sirada gedən.**
**Dünyaya ən böyük mətin sərkərdə,**
**Heydər Əliyev tək zirvə bəxş edən**
**Hansı məkandır?**
**Naxçıvandır,**
**Nəqşi-cahandır**
**Azərbaycandır!**

ƏDƏBİYYAT SİYAHISI:


1. Dilsuz. Naxçıvan.-Bakı: Beşik, 2008.-14 s.
2. Naxçıvan sancağının müfəssəl dəftəri.-Bakı: Elm, 2001.-379 s.
3. Əliyev F. Naxçıvan xanlığı.-Bakı: Şərq-Qərb, 2007.-120 s.
4. Qaçaq Nəbi. Dastan.-Bakı: Çıraq, 2009.-440 s.
5. Əliyev F. İrəvan xanlığı.-Bakı: Şərq-Qərb, 2007.-144 s.
6. Abuzərli N. İ. Bəşərin beşiyi.-Bakı: MBM, 2009.-48 s.
7. Əliyeva H. Naxçıvan neçə döyüşdü, müdafiə olundu.-Bakı: Şirvannəşr, 2009.-168 s.
8. Rəhimli İ.Ə. Naxçıvan teatrı.-Bakı: Aspoliqraf, 2008.-352 s.
9. Ulu yurd yerlərimiz.-Bakı: İdeal-Print, 2009.-18 s.
10. Seyidov A.Q. Ərəbyengicə.-Nurlan, 2009.-160 s.
11. Aslanlı H.P. Biləv.-Bakı:E.L.Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2008. -460 s.
12. Ünüvar V. (General). Naxçıvan: Təlatüm və burulğanlar (1920-1921).-Naxçıvan: Əcəmi, 2006.-104 s.
13. Kəmalə. Əlixan məhəlləsi.-Bakı: MBM, 2010.-208 s.
14. Azərbaycan Xalçaçılıq sənəti.-Bakı: Xəzər, 2010.-128 s.
15. Zaman Q. Maxtalı: Roman.-Bakı: Nərgiz, 2012.-259 s.



**Redaktor:** **Şəhla Qəmbərova - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtibçi:** **Könül Səmədzadə - F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı**

**Korrektor:** **Məmmədli Ruhiyyə - F. Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin müdiri**